Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

24 MAY 2019-cu il

№ 93 (3991)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QONDARMA «DQR»də «VAHİD ERMƏNİ DÖVLƏTİNİN TƏRKİB HİSSƏSİ» OLMAQ ÜÇÜN BƏYANAT İMZALANDI - SEPARATÇI REJİM NİYƏ NARAHATDIR...

■ səh. 5 ■

Avropada Azərbaycan qazına müştəri dövlətlərin sayı artır ■ səh. 6 ■

Ermənilər Şuşadakı rus-pravoslav kilsəsini də saxtakarlıqla erməniləşdirdilər ■ səh. 5 ■

Ermənistan ermənipərəstlikdə ad çıxarmış məşhur "Regnum" agentliyinə və onun sahibi Kolerova niyə düşmən oldu... ■ səh. 7 ■

"Unibank"ın kredit siyasətindən vətəndaş qeyri-məmnunluğu artır- daha bir fakt... ■ səh. 12 ■

Məktəblilər üçün yay düşərgə qiymətlərindən xəbəriniz varmı... ■ səh. 15 ■

Qadın geyim mağazalarının "test otaqlarında" kamera biabırçılığı... ■ səh. 14 ■

Yalnız 2012-ci ildən sonra kolleci bitirənlər ali məktəbə imtahansız qəbul olunacaq ■ səh. 12 ■




■ səh. 3-4 ■

✔ Azərbaycana qarşı siyasiləşdirilmiş futbol kampaniyasında daha bir yalan - ingilislərin bilet qaytarma xəbərində məntiqsizlik...

✔ UEFA İK-nin tarixində Bakıda ilk iclas keçirmək qərarı - «siyasiləşdirilmiş futbol» kampaniyasına qarşı Azərbaycana dəstək jesti...




Azərbaycan əleyhinə «siyasiləşdirilmiş futbol» yürüşünə «Amnesty International» da qoşuldu - təşkilat ənənəvi ermənipərəstliyindən dönməyib... ■ səh. 4 ■

Ermənilər Gürcüstanın NATO - Avrointeqrasiya xəttinə qarşı rəsmi hərəkata başladı... ■ səh. 8 ■



Erməni cəmiyyətində yeni kabus - «Azərbaycan bu hərbi təlimləri elə-belə keçirmir», «Növbəti dayanacağımız Şuşadır» ■ səh. 9 ■

■ səh. 7 ■ Paşinyanın açıq antiməhkəmə təqib siyasətinə AB-dən və AŞPA-dan iki fərqli münasibət - Bu həmin Yaqlanddır ki...



■ səh. 11 ■ ABŞ Hitler üzərində qələbənin 75 illiyi şərəfinə üçbayraqlı qızıl medal buraxdı - SSRİ-nin bayrağı "unuduldu"...



■ səh. 10 ■ Siyasiləşmə və saxtakarlıq "Avroviziya" müsabiqəsinin imicini məhv etdi - İsrail son mərhələ ola bilər



■ səh. 13 ■ Açılan yeni iş yerlərinin 70 faizdən çoxu Bakının payına düşür - müsbət prosesin neqativ cəhəti...



■ səh. 14 ■ Azərbaycanda qadın zorakılığı faktlarını kimlər hansı maraqla şişirdirlər...



## Prezident İlham Əliyev Almaniya Bundestaqından gəlmiş yüksək rəsmi qonaqları qəbul edib

**Prezident İlham Əliyev mayın 23-də Almaniya Bundestaqının Sosial Demokrat Partiyası, Almaniya-Cənubi Qafqaz parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yohannes Kahrsın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə ikitərəfli münasibətlərə toxunan Prezident İlham Əliyev Almaniya Kansleri Angela Merkelin Azərbaycana ilk səfərini xatırlayaraq, bunu əlaqələrimizin inkişafında tarixi hadisə kimi dəyərləndirib. Prezident ölkələrimizin biznes dairələri arasında da əlaqələrin uğurla inkişaf etdiyini, ölkəmizdə xeyli sayda Almaniya şirkətlərinin müxtəlif layihələrdə iştirakının önəmini vurğulayıb və parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərimizin inkişafı baxımından rolunu yüksək qiymətləndirib.

## Azərbaycan ötən il müdafiə üçün 3 milyard manata yaxın pul xərcləyib

**Azərbaycanda 2018-ci ildə dövlət büdcəsindən müdafiə üçün xərclənən vəsaitin məbləği məlum olub. "Trend"in məlumatına görə, bununla bağlı məsələ "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsində öz əksini tapıb.**



Qanun layihəsinə əsasən, 2018-ci ildə müdafiə üçün ümumilikdə 2 milyard 842 milyon manat xərclənib.

Bu məbləğin 1.305 milyard manatı müdafiə qüvvələri, 151.621 milyon manatı milli təhlükəsizlik, 2.613 milyon manatı müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar, 1.383 milyard manatı isə digər kateqoriyalara aid edilməyən xərclərə sərf edilib.

Dövlət büdcəsindən, həmçinin məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq oqranlarına 1.316 milyard manat xərclənib.

Qanun layihəsi Milli Məclisin mayın 30 və 31-də keçiriləcək plenar iclaslarında müzakirəyə çıxarılacaq.

# Azərbaycan Çini daim onun üçün vacib olan məsələlərdə dəstəkləyir

### *Prezident Əliyev Çinə aydın mesaj verdi*



**Prezident İlham Əliyev mayın 23-də Çin Xalq Respublikasının Xarici işlər naziri Van Yinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlət başçısı, ilk növbədə, Çində keçirilən ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Forumuna dəvətə görə Çin tərəfinə minnətdarlığını bildirib, bunu ölkələrimiz arasında dostluq münasibətlərinin göstəricisi kimi dəyərləndirərək vurğulayıb ki, Azərbaycan Çini daim onun üçün vacib olan məsələlərdə dəstəkləyir. Dövlət başçısı deyib ki, Azərbaycan "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri olub və ölkəmizin nəqliyyat infrastrukturu bu layihə çərçivəsində nəqliyyat daşımaları üçün istifadə edilə bilər.

Xarici işlər naziri Van Yi qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda siyasi və sosial sabitlik təmin olunub, ölkəmiz iqtisadi baxımdan davamlı inkişaf edir, əhalinin rifah halı ardıcıl surətdə yüksəlir, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daim artır və möhkəmlənir.

# Azərbaycan və Ermənistanın hərbi əsirlərlə bağlı 2010-cu ildə əldə etdiyi razılaşma yenidən gündəmə gəlir

**ATƏT Minsk Qrupunun həmsədrləri mayın sonunda regiona səfəri zamanı əsirlərlə bağlı təklifləri Dağlıq Qarabağ münaqişəsinin tərəflərinə təqdim edəcək.**



Bunu özəl olaraq "Trend"ə nazir Sergey Lavrovun "münaqişə zonalarında etimad mühitinin qurulması vasitəsi kimi əsirlərin hamının hamıya prinsipi ilə dəyişdirilməsi" və bunun Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına proyeksiyası barədə bəyanatı ilə bağlı Rusiya Xarici İşlər Nazirliyindən (XİN) bildiriblər.

Nazirlikdən xatırladıblar ki, 2010-cu ilin oktyabrında Həştərxanda Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin üçtərəfli görüşü zamanı hərbi sahədə etimad tədbirlərinin möhkəmləndirilməsi məsələləri müzakirə olunub: "Bu məqsədlə ATƏT Minsk Qrupunun həmsədrləri və Beynəlxalq Qızıl Xaç Komitəsinin köməyilə hərbi əsirlərin dəyişdirilməsi ilə bağlı razılaşma əldə olunmuşdu. Bakı və İrəvan gələcəkdə bu yanaşmanı rəhbər tutmaq barədə razılıq əldə edib.

Hesab edirik ki, bu razılaşma öz aktuallığını qoruyur. Əsirlərin dəyişdirilməsi ilə bağlə məşvərətlər davam edir".

Rusiya XİN-dən bildiriblər ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri Moskvada keçirilmiş görüş zamanı tərəflərin ərazilərində girovluqda olan şəxslərin saxlanma şəraitinin yaxşılaşdırılması istiqamətində onları qohumlarının qarşılıqlı əsasda ziyarət etməsi ilə bağlı tədbirlər görmək üçün hazır olduqlarını təsdiq ediblər.

**"ATƏT Minsk qrupunun həmsədrləri bununla bağlı müvafiq təkliflər hazırlayıb və bu təklifləri bu ayın sonunda tərəflərə təqdim edəcək".**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Bakıda Avroliqanın intizarla gözlənilən finalına bilet satışı davam edir

**Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA Avropa Liqasının final oyununa bilet satışı davam edir.**

AFFA-dan "Trend"ə verilən məlumata görə, biletləri "Port Baku Mall", "28 May Mall", "Gənclik Mall" və Heydər Əliyev Sarayının kassalarında əldə etmək mümkündür. Qeyd edək ki, mayın 29-da "Çelsi" və "Arsenal" komandaları üz-üzə gələcək.

# Azərbaycana qarşı siyasiləşdirilmiş futbol kampaniyasında daha bir yalan - ingilislərin bilet qaytarma xəbərində məntiqsizlik...

**Azərbaycanı növbəti sınağa çəkmək istəyirlər. Ancaq ölkəmizdə bu cür təxribatçı niyyətlərə qarşı sərt immunitet formalaşdığı üçün, bizi indi də müxtəlif mövzularda şantaj edirlər. Əslində, bu təxribatların hardan və niyə qaynaqlandığını biz hamıdan gözəl bilirik. Çünki ilk dəfə deyil ki, bununla üzləşirik. Bəllidir ki, bizi gözü götürməyən qüvvələr Azərbaycan kimi gənc ölkənin başı dik olaraq, ən mötəbər tədbirlərə evsahibliyi etmək iddialarını həzm edə bilmirlər.**




Hər zaman görmüşük ki, mühüm tədbirlər öncəsi bizi qaralamağa çalışırlar. Ölkəmizə müxtəlif istiqamətlərdən hücumlar vüsət alır. Hətta siyasətlə bağlı olmayan idman yarışlarını belə siyasiləşdirməyə çalışırlar. Bütün tədbirlər öncəsi eyni sözü deyiblər. Guya buradakı təhlükəsizlik mühiti standarta cavab vermir, infrastruktur və şərait pisdir, ölkədə insan haqlarının vəziyyəti qənaətbəxş deyil. Dəfələrlə gəlib görüblər ki, tədbirlər ən yüksək təhlükəsizlik şəraitində baş tutur. Heç bir iradları da olmayıb. Hətta ölkəmizin təşkilatçılığını uzun müddət digər ölkələr üçün örnək olaraq göstəriblər.

Bənzər ssenari yenə işə salınıb. Budəfəki mövzu ölkəmizin evsahibliyi edəcəyi Avropa Liqasının final matçı ilə bağlıdır. İlk "atəşi" Britaniyanın XİN-i açdı. Ondan sonra təxmin edilirdi ki, kampaniya ardıcıllıqla aparılacaq. Britaniya XİN bəyanat verərək Azərbaycanın bu yarışa evsahibliyi etmək iqtidarında olmadığı rəyini yaratmağa yönəlik bəzi əsassız faktları təqdim etdi. Həmin iddialara ölkəmizdən əsaslı cavab verildiyi üçün, Krallığın ölkəmizdəki səfirliyi öz nazirliklərinin yanlışını düzəldən bir açıqlama ilə çıxış etdi. Ardınca təxribatçı estafet idmana və idmançılara verildi. "Arsenal" klubunun heç də məhsuldar olmayan erməni əsilli, Mxitaryan adlı futbolçusunun milli kimliyi qabardılmağa başladı. Erməni idmançı guya bura gəldiyindən ehtiyat etdiyini deyərək, təxribatçı şouda əsas rolu almış oldu. Maraqlıdır ki, ermənilər bu təxribatlarına İngiltərənin nüfuzlu futbol klubunu da şərik edə bildilər. "Arsenal" rəhbərliyi də Mxitaryanın təhlükəsizliyindən narahat olduğunu əsas gətirib, onu Bakıya gətirməyəcəklərini bəyan etdi. Bununla da guya Bakıya ermənifob bir şəhər olmaq kimi damğanı yapışdırmaq istədilər. Amma həmin əsassız iddiaların da cavabı verildi. Çoxlu misal göstərildi ki, Azərbaycanda indiyə qədər keçirilən sonsuz sayda idman və digər tədbirlərdə ermənilər iştirak edib, hətta qalib olanları da olub. Onların təhlükəsizliyi ilə bağlı hər hansı bir problem yaşanmayıb. Bundan əlavə, Azərbaycanın bir neçə rəsmi qurumu finalın və xüsusilə də "Arsenal" futbolçusunun təhlükəsizliyinə tam təminat verdiyini bəyan etsə də, bu, klubu qane etmədi. Deməli, bütün deyilənlər bəhanədən başqa nəsə deyilmiş. Sonra prosesə Azərbaycanla bağlı daim qərəzli mövqe sərgiləyən beynəlxalq hüquq-müdafiə təşkilatları qoşuldular. Bunun da lazımi effekt vermədiyini görənlər indi də birbaşa final oyunda iştirak edən şəxslərə qarşı təxribatçı xəbərlər dövriyyəyə buraxmağa başladılar. Britaniyanın "The Times" nəşri yazıb ki, guya Avropa Liqasının Bakıda keçiriləcək final matçının iştirakçıları onlara ayrılan biletlərin bir hissəsindən imtina etməyi planlaşdırırlar. Həmin iddialarda qeyd edilir ki, "Arsenal" və "Çelsi", ümumilikdə, 6000-dən çox bilet qaytaracaq, çünki müvafiq olaraq 3500 və 2000 bilet sata biliblər. Qeyd edək ki, UEFA, ümumilikdə, klubların hər birinə 5800 bilet ayırıb ki, bu da finalın keçiriləcəyi stadionda yer tutumunun 10 faizini təşkil edir. Bu istiqamətdə yayılan təxribatçı məlumatlarda qeyd edilir ki, qərar guya Bakı aeroportunun buraxılış imkanlarının aşağı olması ilə əlaqədar qəbul edilib. Əslində, irəli sürülən bu iddiaların əsassız olduğunu ciddi dəlillərlə sübut etmək mümkündür. Bəllidir ki, bu cür mötəbər tədbirlər ölkənin öz istəyi ilə onun ərazisində keçirilmir. Final oyunu da o qəbildəndir.

Finalın Bakıda keçirilməsi UEFA-nın qərarı olub. O da məlumdur ki, belə qərarın verilməsi spontan olmur. Bütün parametrlər araşdırılandan sonra belə qərara imza atılır. Yəni Azərbaycan lazım olan şərtlərə cavab verməsəydi, heç finalın burada keçirilməsinə əvvəlcədən imkan verilməzdi. Azərbaycan belə müraciəti etsə də, daha sərfəli təkliflər irəli sürdüyünə, digər namizədlərlə bağlı daha əlverişli şərait yaratdığına görə bu oyuna evsahibliyi etmək hüququnu qazanıb. Ən maraqlısı isə budur ki, iddialarda final iştirakçısının məhz ingilis klublarının olması ilə bağlı bəzi yersiz fikirlər də səslənir. Guya bu amil təşkilatı işlərdə bir qədər problemə səbəb olur. Bu da əsassızdır. Çünki Azərbaycan belə bir iddianı hələ 2017-ci ildə ortaya qoyub. Onda kim ehtimal edə bilərdi ki, finala məhz 2 ingilis komandası çıxacaq? Məntiqlə, finala Azərbaycana daha yaxın ölkələrin klubları da çıxa bilərdi. Aydındır ki, bu cür idman yarışlarının təşkil edildiyi ölkələrə azarkeşlərin kütləvi axını baş verir. Bu da onların hadisə yerinə çatmasını adi qaydalardakından bir balaca da olsa çətin edir. Bunu böyük idman oyunlarına evsahibliyi edən ölkələrin hər biri yaşayıb. Ancaq Azərbaycanın ən müasir infrastrukturu və nəqliyyat potensialı bu axını qarşılamaq gücündədir. Bundan qəti narahat olmağa dəyməz. Yazının əvvəlində də vurğuladıq ki, artıq bizdə bu cür bəhanələr, təxribatlara qarşı möhkəm immunitet yaranıb. Onlarla mübarizə edib sonda qalib gəlmək kimi təcrübəni mənimsəmişik. Misal kimi "Avroviziya"nı, Avropa və İslam Həmrəyliyi oyunlarını göstərə bilərik. Bu baxımdan da bütün iddialara, kimlərinsə narazılıq və narahatlıq yaratmaq, müxtəlif bəhanələrlə bu oyunun keçirilməsinə əngəl olmaq cəhdlərinə baxmayaraq, dünyanın diqqət mərkəzində olan futbol bayramı ən yüksək səviyyədə baş tutacaq və milyonlarla futbol azarkeşi bundan zövq alacaq. Buna kiminsə qəti şübhəsi olmasın.

Bununla Azərbaycan öz arxivinə daha bir mühüm idman tədbirini yüksək səviyyədə təşkil etməyi bacaran qızıl xalı yazdırmış olacaq...

***Məhəmmədəli QƏRİBLİ***

# Dövlət Pedaqoji Universiteti Ümid Mehdiyevin yoxlamalar nəticəsində vəzifədən azad edilməsi barədə xəbərə əsaslı düzəliş etdi




**ADPU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri Mənsur İbrahimovun yaydığı xüsusi açıqlamada deyilir:**

"2019-cu il may ayının 23-də "Muxalifet.az" informasiya portalında Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) İnzibati və iqtisadi işlər üzrə prorektoru Ümid Səməndər oğlu Mehdiyevin tutduğu vəzifədən azad edildiyi barədə məlumat yayılıb. Məlumatda Ümid Mehdiyevin prorektor vəzifəsindən azad edilməsi guya ADPU daxilində aparılan yoxlamalar nəticəsində maliyyə pozuntusunun aşkar edilməsi ilə əlaqələndirilir. Bununla əlaqədar olaraq bildiririk ki, Ümid Mehdiyev xaricdə təhsil üzrə dövlət proqramı çərçivəsində 2014-2015-ci illərdəBöyük Britaniyanın Liverpul Universitetində magistratura təhsili alıb və öz xahişi ilə universitet rektorunun müşaviri vəzifəsinə təyin edilib. Bunun səbəbi isə Ümid Mehdiyevin öz elmi-pedaqoji fəaliyyətini davam etdirmək istəyi, ADPU-nun 2021-ci ilədək strateji inkişaf planına uyğun olaraq universitetin rəqabətqabiliyyətliliyini artırmaq üzrə nəzərdə tutulan layihələrdə fəal iştirak etmək istəyi olmuşdur.

Bir daha bildirmək istəyirik ki, ali məktəb qaynar həyat yaşayan sosial bir qurumdur və orada insanların vəzifələrini dəyişməsində, bir vəzifədən digərinə keçməsində xüsusi bir məna axtarmaq doğru deyil. Digər tərəfdən, ADPU-da heç bir daxili yoxlama aparılmayıb və bu səbəbdən universitetdə maliyyə pozuntusunun aşkar edilməsi barədə dərc olunan məlumat həqiqəti əks etdirmir.

Buna görə də hörmətli media nümayəndələrindən ADPU ilə bağlı belə məlumatların dəqiqləşdirilmədən dərc edilməməsini xahiş edirik".

**"Amnesty İnternational" insan haqları təşkilatı UEFA-nı mayın 29-da Bakı Olimpiya Stadionunda Avropa Liqasının yekun matçının keçirilməsinə əngəl olmağa çağırıb. Təşkilat guya Azərbaycanda insan haqlarının durumunun qənaətbəxş olmadığını əsas gətirərək oyunun keçirilməsinə etiraz edib.**

# Azərbaycan əleyhinə "siyasiləşdirilmiş futbol" yürüşünə "Amnesty İnternational" da qoşuldu - təşkilat ənənəvi ermənipərəstliyindən dönməyib...




## *Yeganə Hacıyeva: "Ölkəmizin adının olduğu yerdə onlar hətta düşmənlərini belə tənqid etməyə qorxurlar"*

Əslində, burada təəccüblü nəsə yoxdur. Çünki sırf ermənilərin təsiri altında olan bu təşkilat daim Azərbaycana qarşı ikili standartlardan irəli gələn mövqe ortaya qoymaqla məşğuldur. Artıq dəfələrlə sübut olunub ki, bu cür təşkilatlardan müstəqil siyasət yürüdən ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə edirlər. Bəllidir ki, Azərbaycanda həmişə mühüm tədbirlər keçirilən ərəfədə "Amnesty İnternational" kimi təzyiq aləti olan təşkilatlar hərəkətə keçir və ölkəmizin imicinə xələl gətirməyə çalışırlar. Əlbəttə, bunun da səbəbi Azərbaycanın dinamik inkişafı, beynəlxalq aləmdə nüfuzunun durmadan artmasıdır. Azərbaycanın bu inkişafı, müstəqil siyasətindən narahat olan bəzi xarici dairələr əllərinə fürsət düşdükcə, ölkəmizə təzyiq göstərməyə cəhd edirlər. Azərbaycan indiyə qədər çoxlu sayda beynəlxalq tədbirə, idman yarışına çox uğurla evsahibliyi edib: "Avroviziya" mahnı müsabiqəsi, Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Formula-1" kimi mötəbər beynəlxalq yarışların ölkəmizdə yüksək səviyyədə keçirilməsi bunun bariz nümunəsidir. Maraqlıdır ki, hər dəfə də "Amnesty İnternational" kimi reputasiyası zədəli olan təşkilat bizi qaralamağa çalışıb. Azərbaycanı davamlı şəkildə sərt tənqid edən, əsasən də ünvanımıza böhtan atan təşkilatın fəaliyyəti doğrudan da təəccüb doğurmaya bilmir. Bəyəm bu illər ərzində ölkəmizdə müsbətə doğru hansısa addım atılmadı ki, təşkilat onu təqdir etsin?

Politoloq Yeganə Hacıyeva qəzetimizə **açıqlamasında bildirdi ki, "Amnesty İnternational" kimi təşkilatdan belə mövqeni biz gözləyirdik:** "Artıq bu cür təşkilatlar lazım olan funksiyalarını oynaya da bilmirlər. Tam ifşa olunduqları üçün əksər ölkələr onların hesabatını heç ciddiyə də almırlar. İnsan haqları ilə məşğul olan beynəlxalq təşkilat niyə hansısa ölkə ilə qarşıdurma yolunu tutmalıdır? Çox doğru olaraq qeyd edirsiniz, bəyəm bu ölkədə bir dənə də olsun müsbət iş yoxdur ki, həmin təşkilat onu təqdir etsin? Biz sizinlə dəfələrlə bu mövzularda yazılar işləmişik. Hər dəfə də vurğulamışıq ki, bu təşkilatlar təzyiq qrupları funksiyasını həyata keçirirlər. Bir çoxları böyük dövlətlərin xüsusi xidmət orqanları, bəziləri isə ölkələrin siyasi rəhbərliyinin müəyyən etdiyi tezislər əsasında fəaliyyət göstərirlər. Azərbaycanda bu təşkilatlara qarşı çox doğru rəy formalaşıb. Adlarını çəkən kimi, hamı üzünü çevirir. Gərək öz reputasiyasının qeydinə qalan təşkilat özünü bu səviyyəyə salmayaydı. İdman yarışları hara, insan haqlarını qoruyan təşkilat hara? Onlar bu praktikanı "Avroviziya" ərəfəsində də tətbiq etdilər. Gördülər ki, heç bir uğur qazana bilmədilər. Azərbaycanla bağlı onların o qədər məşğul olmalı işləri var ki... Niyə buna maraq göstərmirlər? Bax, elə bu günlərdə baş verən bir hadisəni deyim. Tanınmış bir azərbaycanlı jurnalisti döyüb, həbs ediblər. Özü də hadisə "Amnesty İnternational"ın bəyənmədiyi Rusiyada yaşanıb. Görürsünüzmü, bir həftədir təşkilatın səsi çıxmır.

**Çünki ortada Azərbaycan adı var. Ölkəmizin adının olduğu yerdə onlar hətta düşmənlərini belə tənqid etməyə qorxurlar. Hesab edirəm ki, artıq özünə qeyri-ciddi, qərəzli imic qazanmış təşkilatın bu yöndə olan fəaliyyətinə heç ciddi reaksiya vermək belə lazım deyil".**

*Məhəmmədəli QƏRİBLİ*

**Azərbaycanda kütləvi və ən çox sevilən idman növü olan futbolun zəngin tarixi və ənənələri var. Bakının "Neftçi", Gəncənin "Dinamo" komandalarının qazandığı uğurlar futbol tariximizin şanlı səhifələridir. XX əsrdə Azərbaycanda dünya səviyyəli futbolçular, məşqçilər və hakimlər yetişib.**

# UEFA İK-nin tarixində Bakıda ilk iclas keçirmək qərarı - "siyasiləşdirilmiş futbol" kampaniyasına qarşı Azərbaycana dəstək jesti...




*"Azərbaycanın uğurlarını həzm edə bilməyən qüvvələrə göstərdi ki, idmanı siyasətə qatmaq ən böyük səhvdir"*

## *Vüqar Rəhimzadə: "Məlum qərar idmanı siyasiləşdirməyə çalışan erməni lobbisinə və anti-Azərbaycan qüvvələrinə bir tutarlı cavabdır"*

Müstəqillik əldə olunduqdan sonra müəyyən müddət ərzində futbol sahəsi çətinliklər yaşasa da, sonrakı mərhələ yenidən dirçəlməyə başladı. Həyata keçirilən tədbirlər nəticəsində futbolun infrastrukturu genişləndirildi, onun maddi-texniki bazası möhkəmləndirildi və digər məsələlər yoluna qoyuldu. Bütün bunların nəticəsidir ki, Azərbaycan klubları Avroliqada iştirak edir, bir sıra uğurlara imza atırlar. Məlum olduğu kimi, mayın 29-da Bakıda UEFA Avropa Liqasının final matçı keçiriləcək.

Bu sahədə görülən işlərin nəticəsidir ki, beynəlxalq futbol təşkilatlarının da Azərbaycana marağı artmaqdadır. Mayın 29-da tarixdə ilk dəfə UEFA İcraiyyə Komitəsinin iclası Bakıda təşkil olunacaq. İclasın gündəliyində 12 məsələ olacaq.

UEFA-nın belə bir mühüm tədbirini ilk dəfə olaraq Bakıda keçirməsi, bir növ, "Çelsi" və "Arsenal" oyununu siyasiləşdirməklə bağlı Qərbdəki bəzi dairələrə etiraz tədbiridir. O mənada ki, idmanı siyasiləşdirmək olmaz. Bundan siyasi məqsədlər üçün istifadə etmək doğru deyil.

O baxımdan, ekspertlər UEFA-nın bu qərarını necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, UEFA-nın məlum iclası ilk dəfə olaraq Bakıda keçirməsi idmanı siyasiləşdirənlərə tutarlı cavabdır:** "Bunu siyasiləşdirməyə çalışan erməni lobbisinə və anti-Azərbaycan qüvvələrinə bir tutarlı cavabdır. Ən başlıcası isə, Bakıya olan etimadın nümunəsidir və keçiriləcək final oyununa verilən doğru qiymətin dəyəridir. Hesab edirəm ki, UEFA İcraiyyə Komitəsinin ilk iclasının Bakıda keçirilməsi həm də Azərbaycana verilən yüksək qiymətin göstəricisidir.

Azərbaycanın uğurlarını həzm edə bilməyən qüvvələrə göstərdi ki, idmanı siyasətə qatmaq ən böyük səhvdir. Bundan hansısa siyasi məqsədlər üçün istifadə etmək kökündən yanlışdır. Azərbaycan bütün beynəlxalq tədbirlərə yüksək səviyyədə evsahibliyi edib. Bu dəfə də belə olacaq. Avroliqanın finalı yüksək səviyyədə keçiriləcək.

**UEFA-nın tarixdə ilk dəfə olaraq iclasını Bakıda keçirməsi bütün mənalarda Azərbaycanın uğurudur. Bu, Qərbdəki bədxah qüvvələrə bir güclü zərbədir, o mənada ki, onların bütün arqumentləri puç oldu. Azərbaycan beynəlxalq idman yarışlarına, bu kimi tədbirlərə hər zaman hazır olduğunu bir daha sübut etdi. Ona görə də hesab edirəm ki, UEFA-nın bu qərarı bizim uğurumuzdur".**

*Vidadi ORDAHALLI*

**İşğal altında olan Xankəndidə qondarma "DQR"də fəaliyyət göstərən "partiya" sədrləri bir araya gəliblər. Müzakirə mövzusu "miatsum" (birlik) və Qarabağdakı hakimiyyət dəyişikliyi olub.**

# Qondarma "DQR"də "vahid erməni dövlətinin tərkib hissəsi" olmaq üçün bəyanat imzalandı - separatçı rejim niyə narahatdır...

*Əli Orucov: "Bütün bunlar Ermənistanda son vaxtlar iki klan arasında yaşanan qarşıdurmanın təzahürüdür"*



*"Ona görə də müxtəlif adlar altında tədbir keçirib bəyanatlar verirlər"*

Bununla bağlı müzakirələr aparıldıqdan sonra separatçılar bəyanat imzalayıblar. İmzaladıqları bəyanatda "vahid erməni dövlətinin tərkib hissəsi" olduqlarını təsdiq ediblər. Guya bu bəyanat "Artsax"ın və bütün Ermənistanın ümummilli məqsədinə və dövlətçiliyin təhlükəsizliyinə xidmət edir.

Bununla bağlı bəyanatı separatçı qurumda fəaliyyət göstərən qondarma siyasi "təşkilatlar" imzalayıblar. Bunlar "Müstəqil nəsil" "partiyası", "Artsaxın oyanışı" "təşəbbüs qrupu", "Respublikaçılar" "partiyası", "Əfqanıstan müharibəsi veteranları birliyi", "Perelom" "partiyasının təşəbbüs qrupu", "Kimlik və birlik" "partiyası", "Birləşmiş Ermənistan" "partiyası", "Birləşmiş Ermənistan" "vətənpərvərlik birliyi", "Sasna tsrer" "partiyası" olub. Həmçinin, qondarma qurumda fəaliyyət göstərən bəzi ictimai şəxslər bəyanatı imzalayıblar.

Zatən, ermənilər neçə ildir "miatsum" ideyasını həyata keçirmək uğrunda mübarizə aparırlar. Bu xəstə təfəkkürdən irəli gələrək bütün vasitələrə əl atırlar. Dənizdən-dənizə "Böyük Ermənistan" yaratmaq onların ən böyük arzusudur. Belə olan halda, separatçı qurumda "partiyaların" bir araya gəlib bəyanatla çıxış etməsi, ortada olan bu narahatlıq nə ilə bağlıdır?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun fikrincə, bütün bunlar Ermənistanda son vaxtlar iki klan arasında yaşanan qarşıdurmanın təzahürüdür:** "Ötən il Ermənistanda hakimiyyət dəyişikliyindən sonra, hazırkı hakimiyyətlə "Qarabağ klanı" arasında ziddiyyətlər daha da kəskinləşərək açıq müstəviyə keçib. Köçəryanın həbsdən buraxılmasından sonra tərəflər arasında mübarizə yeni müstəviyə keçir. "Qarabağ klanı" bütün rıçaqları işə salır ki, Paşinyanın hakimiyyəti zəifləsin. Əsasən belə rəy yaratmaq istəyirlər ki, guya Paşinyan danışıqlarda Azərbaycanın xeyrinə güzəştə getməyə hazırlaşır. Bunun ətrafında spekulyasiya yaradıb, bir növ, şou göstərirlər. Halbuki, reallıq ondan ibarətdir ki, Qarabağ məsələsində Paşinyan əvvəlki hakimiyyətdən daha radikaldır. Bunu ötən bir ildə açıq formada ortaya qoydu. Ancaq, dediyim kimi, iki klan arasında qarşıdurma dərinləşdiyi üçün, belə tədbirlər keçirməklə müəyyən fon yaradırlar. Başqa bir tərəfdən, Qarabağdakı separatçılar ehtiyat edirlər ki, qondarma qurumda müəyyən hərbçilər işdən uzaqlaşdırılacaq. Bu da indiki situasiyada onların maraqlarına uyğun deyil. Bu baxımdan, Ermənistanda aprel döyüşləri ilə bağlı parlament komissiyasının yaradılması separatçıları narahat edir. Hesab edirlər ki, proseslərin bu yöndə inkişafı onlar üçün yaxşı nəticələnməyəcək. Fikrimcə, bütün bu və digər səbəblərdən separatçılar narahatdırlar. Ona görə də müxtəlif adlar altında tədbir keçirib bəyanatlar verirlər".

***Vidadi ORDAHALLI***

**Ermənilərin uzun illərdir işğal altında saxladıqları Dağlıq Qarabağda və ətraf rayonlarda tarixi, dini abidələri saxtalaşdırması, onları qəsdən erməniləşdirməsi faktları mövcuddur. Onların bu istiqamətdə fəaliyyətləri günü-gündən daha da genişlənir. Ermənilər orada yalnız alban dövrü Azərbaycan abidələrini, eləcə də məscidləri deyil, həm də rus-pravoslav kilsəsini erməniləşdirməkdən çəkinmirlər.**

# Ermənilər Şuşadakı rus-pravoslav kilsəsini də saxtakarlıqla erməniləşdirdilər

*Faiq İsmayılov: "Bu gün ermənilərin şuşalılar tərəfindən "rus kilsəsi" kimi tanınan rus-pravoslav kilsəsini erməniləşdirməsi böyük saxtakarlıqdır"*



*"Rus-pravoslav kilsəsi kimi fəaliyyət göstərən bu kilsə Qarabağ xanının divanxanası idi"*

İki əsrdir rusların himayəçiliyi ilə Qafqazda kök salan, Azərbaycan torpaqları üzərində özlərinə dövlət quran, torpaqlarımızı işğal edən ermənilər Şuşadakı rus pravoslav kilsəsinin də quruluşunu dəyişərək onu erməni kilsəsinə çeviriblər.

Ermənilərin Şuşadakı rus-pravoslav kilsəsinə qarşı həyata keçirdikləri saxtakarlıq məsələsi "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin Azərbaycanda fəaliyyət göstərən dini icmaların rəhbərləri ilə görüşündə də müzakirə edilib. Sözügedən görüşdə çıxış edən Rus-Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyası pravoslav dini təşkilatının keşişi Konstantin Pominov bildirib ki, ermənilər Şuşada yerləşən rus-pravoslav kilsəsinə müdaxilə etmələri barədə onları məlumatlandırmayıblar: "Qarabağ Azərbaycan torpağıdır. Qarabağ, İrəvan xanlıqları olub. Dağlıq Qarabağdakı rus-pravoslav kilsələri də Rus-Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasına tabedir".

Qeyd edək ki, məlumatlara görə, ermənilər yalnız Şuşadakı rus-pravoslav kilsəsini erməniləşdirməyiblər, Ermənistan ərazisində olan bu cür kilsələrə də əl uzadıblar.

**Erməni saxtakarlığının xərçəng süratı ilə bütün Qafqaza, ətraf ölkələrə, dünyaya yayıldığını deyən Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov "Bakı-Xəbər"ə rus-pravoslav kilsəsinin erməniləşdirilməsinin növbəti erməni saxtakarlığının göstəricisi olduğunu bildirdi:** "Ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarında abidələrimizə qarşı həyata keçirdikləri saxtalaşdırma və terror əməlləri bir faktdır.

Ermənilərin Şuşadakı rus-pravoslav kilsəsinə qarşı həyata keçirdikləri bu saxtakarlığın kökündə, mahiyyətində onların çirkin əməlləri dayanır. Faktiki olaraq Şuşada üç kilsə fəaliyyət göstərir. Bədnam "Türkmənçay" müqaviləsindən sonra Rusiya qoşunları, Şuşa da daxil olmaqla, Azərbaycanın müxtəlif ərazilərində yerləşdirilmişdi. Orada rus ordusunun bir qarnizonu vardı. Şuşada heç bir Qafqaz dövrü kilsə abidəsi də yoxdur ki, o vaxt onlar bu tikilidən kilsə kimi istifadə etsinlər. Şuşada Qarabağ xanlığının divanxanası var və həmin dövrdə divanxana binası boş idi, istifadə olunmurdu. O vaxt ruslar gətirib həmin divanxananın üzərinə bir zəng asdılar və məqsədləri o idi ki, zəng vurulanda rus əsgərləri qaldıqları yerdə ibadətlə məşğul olsunlar. Sonra zaman keçdi, bu zəngin qülləsini yenidən inşa etdilər qaldırdılar. Şuşalılar da həmişə bu tikiliyə rus kilsəsi deyirdi. Yəni rus-pravoslav kilsəsi kimi fəaliyyət göstərən bu kilsə Qarabağ xanının divanxanası idi, sonra bu şəkildə kilsəyə çevrildi. 1918-ci ildə Şuşada erməni dövləti yaratmağa cəhdlər olub və həmin dövrdə Xosrov bəy Sultanov onları oradan dağıdıb. Erməni yazıçısı Şahnazaryan öz kitabında yazır ki, biz rus zabitləri ilə gedib Şuşadakı rus kilsəsində görüşdük. Yəni burada "erməni kilsəsi" adlı bir tikili olmayıb, əgər olsaydı, bunu mütləq erməni yazıçısı yazardı. O kilsəyə keçən əsrin 70-ci illərinə qədər rus kilsəsi deyiblər, yəni o kilsənin ermənilərlə heç bir əlaqəsi yoxdur. Sonra ermənilər həmin dövrdə bizim maliyyəmiz hesabına orada kilsə tikdilər. Orada bir Qazançı kilsəsi də var, o həmin kilsədən fərqlidir. Həmin kilsə Naxçıvanın Qazançı kəndindən gələn ermənilər tərəfindən inşa edilib və çox kiçik bir kilsə idi. İndi onu da böyüdüblər. Ermənilər XX əsrin əvvəllərindən Şuşada kilsə tikiblər, ondan əvvəl isə burada, dediyim kimi, erməni kilsəsi olmayıb. XVIII-XIX əsrlərdə Şuşada erməni kilsəsi yox idi. Heç rus kilsəsi də olmayıb, sadəcə, qeyd etdiyim kimi, burada "rus kilsəsi"ni ifadə edən bir zəng qülləsi olub. Bunun da məqsədi rus hərbçilərini ibadətə çağırmaq idi. Çünki elə bir tikili yox idi ki, onlar ora toplaşıb kütləvi ibadətlə məşğul olsunlar. Bu gün ermənilərin şuşalılar tərəfindən "rus kilsəsi" kimi tanınan rus-pravoslav kilsəsini erməniləşdirməsi böyük saxtakarlıqdır".

*"O vaxt ruslar gətirib həmin divanxananın üzərinə bir zəng asdılar və məqsədləri o idi ki..."*

***İradə SARIYEVA***

# Avropada Azərbaycan qazına müştəri dövlətlərin sayı artır

**Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan "Cənub Qaz Dəhlizi"nin son mərhələsi sayılan TAP layihəsinin sona yaxınlaşması fonunda Qərb dünyasında ölkəmizə, onun enerji ehtiyatlarına marağın daha da artması müşahidə olunur. Xatırladaq ki, artıq gələn ilin əvvəlindən bu kəmər vasitəsilə Azərbaycan qazı Avropanın müxtəlif ölkələrinə çatacaq.**

Amma indilikdə görünən həm də odur ki, Azərbaycan qazını almaq istəyən Avropa dövlətlərinin sayı artır. Xüsusən də Bolqarıstan-Yunanıstan İnterkonnektorunun təməlinin atılması fonunda bu marağın artması müşahidə olunur.

Xatırladaq ki, Bolqarıstanın cənubunda, Kirkovo kəndi yaxınlığında Bolqarıstan-Yunanıstan İnterkonnektorunun təməlqoyma mərasimi keçirilib. Mərasimdə çıxış edən Bolqarıstan baş naziri Boyko Borisov qeyd edib ki, bu layihə təkcə iki ölkə üçün deyil, qərbi Balkan ölkələri, bütövlükdə isə Avropa üçün strateji əhəmiyyətə malikdir. Yunanıstan baş naziri Aleksis Tsipras isə bildirib ki, interkonnektor Balkan ölkələrini enerji habına çevirəcək. Artıq bu fonda Rumıniya və Serbiyanın da Azərbaycan qazını alması gündəmə gəlib.

Qeyd edək ki, Bolqarıstan-Yunanıstan İnterkonnektoru Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz-kondensat yatağının ikinci fazası çərçivəsində hasil edilən qazın Bolqarıstana ixracı üçün nəzərdə tutulub. İnterkonnektor tezliklə TAP-a qoşulacaq. Bolqarıstan interkonnektoru vasitəsilə ildə 1 milyard kubmetr Azərbaycan qazı alacaq. Xatırladaq ki, 2013-cü ilin sentyabrında "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alınması ilə bağlı 25 illik saziş imzalayıb. Azərbaycan təbii qazı isə TAP boru kəməri ilə 2020-ci ilin əvvəlində Avropaya çatdırılacaq. Həmin il Yunanıstan-Bolqarıstan qaz şəbəkələrinin bir-biri ilə əlaqələndirilməsi planlaşdırılır. Azərbaycan qazı Bolqarıstanın istehlakının dörddəbir hissəsini ödəyəcək. 182 kilometrlik interkonnektor Yunanıstandan Bolqarıstana ildə təxminən 3 milyard kubmetr təbii qaz nəqli qabiliyyətinə malik olacaq və gələcək bazar tələbatına əsasən bu həcmin illik 5 milyard kubmetrə çatdırılması imkanı var.




Yuxarıda qeyd olunduğu kimi, interkonnektorun işə düşməsi fonunda Rumıniya, Serbiya da Azərbaycan qazına maraq göstərməyə başlayıb. Macarıstan və bir sıra digər Şərqi Avropa, Balkan ölkələrinin Azərbaycan qazını idxal etmək imkanı qazanması onların ölkəmizə marağını artırır. Ekspertlər isə hesab edir ki, perspektivdə Türkmənistan və İranın da "Cənub Qaz Dəhlizi"nə qoşulması ilə Avropa ölkələri Azərbaycan üzərindən daha böyük həcmdə qaz ala biləcək. ABŞ-ın "The National Interest" dərgisi də bu fonda Azərbaycanın Qərb üçün əhəmiyyətinin daha da artdığını yazır. Burada qeyd edilir ki, Avropa və ABŞ "Transxəzər" qaz kəmərinin də çəkilişinə nail olub, Azərbaycan üzərindən daha çox qaz alışını reallaşdırmaq istəyirlər: "Regionda istifadəyə verilmiş və hələ tikilməkdə olan bütün boru kəmərlərini nəzərə aldıqda belə, daha bir mühüm tərkib hissə çatışmır.

Bu, "Transxəzər" qaz kəməridir və o, təbii qazın Xəzər dənizindən nəql edilməsinin iqtisadi baxımdan yeganə məqsədəuyğun üsuludur, çünki maye qazın belə qısa məsafədə dəniz yolu ilə nəql edilməsi sadəcə sərfəli deyil. "Transxəzər" kəməri Avropanın enerji landşaftını dəyişə bilər. Son hesablamalara görə, Xəzər regionunda 292 trilyon kub fut təbii qaz var. Bu, o deməkdir ki, Xəzər regionu dünyada ən zəngin ehtiyatlara malik olan regiondur. Azərbaycan 2018-ci ilin ortalarında TANAP vasitəsilə Türkiyəyə qaz nəql etməyə başlayıb və gələn il TAP kəməri vasitəsilə İtaliyaya nəql etməyə başlayacaq. "Cənub Qaz Dəhlizi"nin layihə gücünün 31 milyard kubmetrə bərabər olduğunu nəzərə alsaq, gələcək "Transxəzər" qaz kəmərindən qaz nəqlini daha da artırmaq mümkün olacaq.

"Transxəzər" qaz kəməri Avropa ölkələrinin digər təchizatçıların inhisarından asılılığını da azalda bilər. Üstəlik, keçən il beş Xəzəryanı ölkə tərəfindən imzalanmış Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya boru kəmərlərini yalnız layihədə iştirak edən ölkələrin razılığı ilə çəkməyə imkan verir, bu da öz növbəsində yeni imkanlar yaradır. Amma "Transxəzər" boru kəmərini inşa etməzdən əvvəl Bakı və Aşqabad Xəzər dənizində Azərbaycanın və Türkmənistanın offşor yataqları arasında interkonnektor tikilməsi məsələsini həll etməlidir. Gələcəkdə interkonnektorlardan istifadə etməklə Qazaxıstanın qaz yataqlarının da bu kəmərə qoşulması variantları öyrənilməlidir, çünki Qazaxıstanın bəzi yataqları kommersiya baxımından rentabelli sayıla bilməz, onlar birbirinə kifayət qədər yaxın yerləşir. Türkmənistanın və Azərbaycanın mövcud qaz yataqlarını birləşdirən interkonnektorun uzunluğu cəmi 60 mil olacaq və onun tikintisinə cəmi 500 milyon dollar xərc çəkmək lazım gələrdi. Müqayisə üçün bildirək ki, bütün "Transxəzər" boru kəmərinin tikintisinə təqribən 1,5 milyard dollar lazım gələcək. İnterkonnektorun olması Avropanın uzunmüddətli enerji təhlükəsizliyinə şərait yaradan böyük nailiyyət olardı.

"Transxəzər" boru kəmərinin tikintisinin başa çatdırılması Birləşmiş Ştatlar üçün də bir sıra üstünlüklər yaradacaq. Maraqlıdır ki, Tramp administrasiyasının bəzi nümayəndələri bu faktı indidən etiraf edir. Prezident Tramp bu yaxınlarda Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədova göndərdiyi məktubunda yazırdı: "Ümidvaram ki, Türkmənistan bu yaxınlarda Xəzər dənizinin hüquqi statusu müəyyən edildəndən sonra Qərbə qaz ixracı üçün yaranmış yeni imkanlardan istifadə edə biləcək". "Transxəzər" boru kəmərinin Birləşmiş Ştatlar üçün ən aşkar üstünlüyü ondan ibarətdir ki, bu kəmər Avropanın enerji təhlükəsizliyini artıracaq.

**Tramp administrasiyası "Cənub Qaz Dəhlizi" və "Transxəzər" boru kəməri kimi alternativ mənbələrdən qaz təchizatı layihələrinin həyata keçirilməsini dəstəkləməlidir. Administrasiya bu məsələdə 1990-cı illərdə Bakı-Tiflis-Ceyhan boru kəməri layihəsinin reallaşması məsələsində Bill Klinton administrasiyasının nümayiş etdirdiyi kimi qətiyyətli olmalıdır". Bütün bunlar qarşıdakı dövr ərzində Avropanın enerji bazarında Azərbaycanın mövqelərinin daha güclü hala gəlməsinə imkan verəcək.**

***Tahir TAĞIYEV***

# Paşinyanın açıq antiməhkəmə təqib siyasətinə AB-dən və AŞPA-dan iki fərqli münasibət - Bu həmin Yaqlanddır ki...

**Məlum olduğu kimi, Ermənistanın eks-prezidentinin həbsdən buraxılması Paşinyanı ölkənin ədliyyə və məhkəmə sistemi ilə düşmənçilik həddinə gətirib. Baş nazirin iradəsi kənarında olan bu prosesə müdaxilə edə bilməyən Paşinyan çıxış yolunu xalqa müraciətdə görürdü.**

*"Azərbaycanın həmin qurumdakı nümayəndə heyəti Yaqlandın bu biabırçı mövqeyini elə AŞPA-da müzakirəyə çıxarıb ondan izahat tələb etməlidir"*

## Elşən Mustafayev: *"Məsələyə dəyərlər prizmasından deyil, hansısa şəxsin fərdi münasibəti kontekstindən yanaşılır"*



Tərəfdarlarını məhkəmələrin işinə mane olmağa səslədi. Özlüyündə antidemokratik olan həmin çağırışı sərt tənqid edənlər oldu. Maraqlıdır ki, daim demokratik dəyərlərin mühafizəsində dayanan tərəf kimi çıxış edən Avropadan isə Paşinyanın həmin addımına fərqli və ziddiyyətli münasibətlər sərgiləndi.

Avropa Parlamentində Ermənistanla əməkdaşlıq komissiyasının sədri Səddad Kərim məhkəmələrin işini iflic edən çağırışı sərt tənqid edib və bunu azad məhkəmə hakimiyyətinin işinə kobud müdaxilə kimi dəyərləndirib. O bildirib ki, bu cür məsələləri həll etmək üçün ölkə rəhbərliyinin əlində kifayət qədər qanuni mexanizm var. Avropa rəsmisi bunun yolunu məhkəmə sistemində qanuni islahatların aparılması ilə izah edib.

Maraqlıdır ki, Avropa Şurasının baş katibi Torbyorn Yaqland isə məsələyə ənənəvi ermənipərəst mövqeyinə uyğun şəkildə yanaşıb. Onunla Paşinyan arasında olan telefon danışığı zamanı Yaqland Ermənistanda aparılan "islahatlara" dəstək verdiyini bildirib və qeyd edib ki, Avropa Şurasının ekspertləri bu istiqamətdə Ermənistana dəstək olmaq üçün həmin ölkəyə səfər edəcəklər. Qeyd edək ki, Yaqland öz fəaliyyəti ərzində ölkəmizə qarşı Avropa strukturlarında daim qərəzli mövqe sərgiləyən şəxs kimi tanınıb. Bu yaxınlarda isə onun Ermənistan barədə səsləndirdiyi fikir daha ciddi marağa səbəb olmuşdu. Avropa rəsmisi diktaturadan əziyyət çəkən ölkəni zəngin Avropa dəyərlərini mənimsəyən dövlət kimi xarakterizə edib.

Ermənistanda baş verən prosesə Avropadan sərgilənən iki fərqli münasibətin kökündə hansı amil dayanır?

**Politoloq Elşən Mustafayev qəzetimizə açıqlamasında bildirdi ki, Ermənistanda baş verənlərə qiymət vermək üçün ciddi araşdırmaya ehtiyac yoxdur:** "Açıq şəkildə görünür ki, Yaqland yenə öz ermənipərəst mövqeyini qorumaqdadır. Paşinyanın məhkəmələrlə bağlı atdığı addım hüququn ayaqlar altına atılmasıdır. Söhbət Köçəryanın günahlı və ya günahsız olmasından getmir. Bu, başqa bir mövzunun söhbətidir. Hər halda, onu həbs edən də, azadlığa buraxan da Ermənistan məhkəməsi olub. Ermənistan qanunvericiliyinə görə, Baş nazir məhkəmələrin işinə müdaxilə edə bilməz. Onlar hakimiyyətin tamamilə başqa bir qoludur. Amma biz görürük ki, Paşinyan gücü çatmayan məhkəmələrin üstünə xalqı göndərir ki, onları linç etsinlər. Onun nüfuzu aşağı düşdüyü səbəbindən həmin çağırışa çox az adam getdi. Yoxsa orada bir çox hakimləri tapdalayıb məhv edəcəkdilər. Zatən, Paşinyanın istəyi də bu idi. Maraqlıdır ki, Yaqland bunu islahat adlandırır. Bu addım Avropa tərəfindən sərt tənqid edilməlidir. Çünki birbaşa onların müəyyən etdiyi dəyərlərlə təzad təşkil edir. Avropa Birliyi məsələyə obyektiv münasibət göstərib. Bu amil bir daha sübut edir ki, artıq Avropadakı institutların yanaşmasında da aşınma var. Məsələyə dəyərlər prizmasından deyil, hansısa şəxsin fərdi münasibəti kontekstindən yanaşılır. Hesab edirəm ki, Azərbaycanın həmin qurumdakı nümayəndə heyəti Yaqlandın bu biabırçı mövqeyini elə AŞPA-da müzakirəyə çıxarıb ondan izahat tələb etməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan ermənipərəstlikdə ad çıxarmış məşhur "Regnum" agentliyinə və onun sahibi Kolerova niyə düşmən oldu...

**Son vaxtlar Ermənistanda Modest Kolerova qarşı ciddi kampaniya başlayıb. Məlumat üçün qeyd edək ki, 1963-cü ildə Rusiyada anadan olan M.Kolerov 1989-cu ildə Moskva Dövlət Universitetinin tarix fakültəsini bitirib. İxtisasca tarixçi olsa da, Kolerov əsasən mətbuatla bağlı sahələrdə çalışıb. Müxtəlif saytlara rəhbərlik edib.**



*"Son vaxtlar Paşinyan hakimiyyətinin fəaliyyətini tənqid edir"*

## Mübariz Əhmədoğlu: *"O sırf Qarabağ separatçılarının mövqeyindən çıxış etdiyinə görə Ermənistan mətbuatında ona qarşı hücumlar artır"*

1999-2001-ci illərdə Sankt-Peterburq qubernatorunun məsləhətçisi olub. Daha sonra Rusiya Prezident Administrasiyasının regional və mədəni əlaqələr idarəsinin rəisi olub.

Ancaq M.Kolerovun əsas fəaliyyəti "Regnum" informasiya agentliyi ilə bağlı olub. Belə ki, Kolerov 2002-ci ildə adıçəkilən agentliyi təsis edib və həm də onuun baş redaktorudur. Çoxlarına da sirr deyil ki, "Regnum" agentliyi yarandığı gündən ermənipərəst mövqeyi ilə seçilib. Hər zaman ermənilərin mənafeyinə xidmət edən birtərəfli və qərəzli informasiya siyasəti həyata keçirib.

Maraqlı olan məqam odur ki, son vaxtlar Ermənistan mətbuatında Kolerova yönəlik güclü kampaniya başlayıb. Ona qarşı müxtəlif çağırışlar səslənir. Onu qondarma "DQR"də dağıdıcı iş aparmaqda ittiham edirlər. Ermənilərin məşhur "miatsum" (birləşmək) ideyasına zərər vurmaqda günahlandırırlar. Hətta o, Ermənistan-Rusiya münasibətlərinə zərər vurmaqda da ittiham edilir. Vəziyyət o yerə gəlib çatıb ki, Kolerovun ölkəyə girişinə qadağa qoyulması ilə bağlı fikirlər səsləndirilir.

Maraqlıdır, ermənipərəstliyi ilə seçilən M.Kolerova münasibət birdənbirə niyə dəyişib? Baş verənlərin kökündə nə dayanır?

**Sözügedən məsələyə aydınlıq gətirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu bunu bir sıra amillərlə əlaqələndirdi:** "Ermənistanda M.Kolerova qarşı kampaniyanın kökündə hazırki hakimiyyət dayanır. Çünki son vaxtlar o, Paşinyan hakimiyyətinin fəaliyyətini tənqid edir. Kolerov "Regnum" informasiya agentliyinin həm təsisçisidir, həm də direktorudur. O bir müddət Rusiya Prezident Administrasiyasının regional və mədəni əlaqələr idarəsinin rəisi işləyib. Onun keçmiş həyat yoldaşlarından biri ermənidir. Bir məqamı da qeyd edim ki, Kolerovun əsas niyyəti Dağlıq Qarabağdakı separatçıların "müstəqilliyinə" nail olmaqdır. Ermənistanda ötən il baş verən məlum hakimiyyət dəyişikliyindən sonra Ermənistan erməniləri ilə Qarabağ erməniləri arasında ziddiyyətlər dərinləşib. Kolerov da açıq şəkildə Qarabağdakı ermənilərin mövqeyindən çıxış edir. Bu da Paşinyan hakimiyyətinin xoşuna gəlmir. Kolerov ermənipərəst olaraq qalır, sadəcə olaraq, Paşinyan və onun komandasını tənqid edir. Bu səbəbdən də Ermənistan mətbuatında ona qarşı hücumlar başlayıb. Bu həmin M.Kolerovdur ki, separatçıların lideri Bako Saakyanı 2 dəfə Moskvaya aparıb. Moskvada Saakyan üçün görüşlər təşkil edib. Saakyan hətta gedib Moskvada Kolerovun evində yaşayıb. Kolerov bu dərəcədə ermənipərəst və pula bağlı adamdır. Bir məqamı da qeyd edim ki, Kolerov bir neçə dəfə işçisi Stanislav Tarasovla Dağlıq Qarabağdan İrana gedib. Orada İran rəsmiləri ilə görüşüb və sonra eyni marşrut üzrə geri qayıdıb. O sırf Qarabağ separatçılarının mövqeyindən çıxış etdiyinə görə Ermənistan mətbuatında ona qarşı hücumlar artır".

***Vidadi ORDAHALLI***

**Cənubi Qafqazda ermənilərin böyük təhdid mənbəyi qismində çıxış etməsi, təkcə Azərbaycana yox, regionun bir sıra digər ölkələrinə qarşı da ərazi iddiaları irəli sürməsi heç kimə sirr deyil. Azərbaycan ərazilərinin bir hissəsini hələ də işğal altında saxlayan Ermənistanın bu gün Gürcüstan və Türkiyə kimi ölkələrə torpaq iddialarının olması da məlum həqiqətdir.**

# Ermənilər Gürcüstanın NATO - Avrointeqrasiya xəttinə qarşı rəsmi hərəkata başladı...

İndilikdə belə görünür ki, ermənilərin maraq dairəsində yer alan əsas məqamlardan biri Gürcüstanın parçalanması, bu fonda həmin ölkənin bir hissəsinin ələ keçirilməsidir.

Ümumiyyətlə, real vəziyyət bu qənaətə gəlməyə əsas verir ki, ermənilər Azərbaycana qarşı etdikləri xain əməlləri indi də Gürcüstanda tətbiq etmək niyyətindədir. ABŞ Milli Demokratiya İnstitutunun Gürcüstanda etnik azlıqlar arasında keçirdiyi sorğuda bu ölkənin NATO və Avropa Birliyinə inteqrasiyasına ermənilərin qarşı çıxması isə bunun daha bir təsdiqidir. Qeyd edək ki, ABŞ Milli Demokratiya İnstitutu Gürcüstanın NATO və AB-yə inteqrasiya etməsi ilə bağlı etnik azlıqlar arasında sorğu keçirib. Sorğuda ermənilərin böyük hissəsi inteqrasiyaya qarşı çıxıb. Bununla ermənilər rəsmi Tiflisin siyasəti ilə razılaşmadıqlarını nümayiş etdirirlər. Ekspertlər bu məsəl'nin mahiyyətinin heç də sadə olmadığını bildirir. Çünki ermənilərin planları var ki, Cavaxetiyanı Ermənistana birləşdirsinlər. Amma onlar çox gözəl bilir ki, Gürcüstan Qərbə inteqrasiya etməyə davam etsə və sonda NATO-nun və Avropa Birliyinin üzvü olsa, ermənilərin arzuları ürəyində qalacaq. Təbii ki, buna görə onlar Gürcüstanın Qərbə inteqrasiyasını istəmirlər. Ermənilərin niyyəti budur ki, Gürcüstan Rusiya ilə Qərbin çəkişmə meydanına çevrilsin. Bununla da vaxtilə Azərbaycana qarşı qurulan planı Gürcüstan üçün edib, Cavaxetiyanı Ermənistana birləşdirmək onların planlarını əsas tərkib hissəsidir. Baş verənlərlə bağlı Avropanın nüfuzlu "Advance" nəşri də yazır ki, ermənilərin Gürcüstan və Türkiyə ilə bağlı niyyətlərinə son qoyulmayıb və bu prosesdə aktivlik var. "Ermənistanın xaricdəki həmvətənlərə hədəflənmiş siyasəti qədər bölgədə başqa heç bir siyasət belə ciddi problemlərə səbəb olmayıb. Buna ən parlaq örnək onun Dağlıq Qarabağda və Ermənistan güclərinin işğal etdikləri daha yeddi rayonda Azərbaycanla sürən savaşıdır. Lakin İrəvanın iki qonşu dövlətə - Türkiyə və Gürcüstana yanaşması gələcək üçün potensialca daha təhlükəlidir. Şərqi Türkiyədə haçansa çoxlu erməni yaşayıb və bu bölgə keçmişdə ermənilərlə birləşən xeyli kürd üçün qabaqkı kimi yurd olaraq qalır.

Gürcüstana gəlincə, onun Cavaxetiya bölgəsində Tiflisdənsə İrəvana xeyli sıx bağlı olan böyük erməni icması məskunlaşıb. Son neçə həftədə, çox ehtimal ki, ən yaxın gələcəkdə bu iki bölgənin birində, ya da ikisində Ermənistanın hərəkəti üzündən gərginliyin çoxalacağını təsdiqləyən iki hadisə baş verib. Bundan başqa, bir bölgədəki hadisə başqasında oxşar, potensialca təhlükəli hadisələr törədə bilər. Deməli, birincisi, söhbət Ağası Ərəbyanın yazdığı və Rusiyanın "Realist" agentliyinin dərc etdiyi məqalədən gedir. Cavaxetiya bölgəsində erməni diasporunun bu lideri materialda Şərqi Türkiyədəki durumdan və ermənilərlə kürdlərin yeni mümkün ittifaqından danışır. Son həftələrdə baş vermiş ikinci mühüm hadisə Amerika Birləşmiş Ştatlarında yaşayan ermənilərin Gürcüstanın Cavaxetiya bölgəsində yaşayan erməni diasporu üçün vəsait toplamaq planları haqda bəyanatı olub.

Ərəbyanın məqaləsi fitnəkar "Qərbi Ermənistan və təkcə bu deyil: Erməni-Kürd SSR-nin gələcəyi varmı?" adını daşıyır və daha maraqlı yarımbaşlıq verilib - "Erməni xalqının və erməni dövlətlərinin işıqlı gələcəyini necə təmin etməli?". Materialda deyilir ki, dünya və Ermənistanın yerləşdiyi bölgə "nəticəsi sərhədləri və milli birliklərin irihəcmli yenidən bölüşdürülməsi ola biləcək böyük böhrana yuvarlanır". Əlbəttə, təhlükə var ki, qonşular Ermənistana hücum edər, amma onun eynən müəyyən "imkanları" var ki, İrəvandakı elitalar diqqətini bu problemə toplasa, öz məqsədlərinə yetsin və ən geniş mənada ermənilərini qorusun.



Ərəbyan eyham vurur ki, xəritələri belə əhatəli yenidən çızmaq nəticəsində əvvəllər Rusiya imperiyası və SSRİ-yə daxil olmuş ərazilərin böyük bölümünü əhatə edəcək "İttifaqın yeni dövlətləri" meydana çıxa bilər. Sərhədlərin dəyişilməsi çağdaş Şərqi Türkiyədə (çar II Nikolayın I dünya savaşında nail olduğu və 1945-ci ildən sonra amerikalılar qarşısını alana qədər İosif Stalinin can atdığı bənzər nəsə) yeni bir erməni-kürd qurumunun yaradılmasına səbəb ola bilərdi.

Erməni şərhçisinin yazdığı kimi, belə bölgəsəl dəyişikliklər artıq ən yaxın gələcəkdə baş verərsə, İrəvan ermənilərin üstün olaca]ı "Erməni-Kürd SSR variantı"nın reanimasiyasına hazır olmalıdır. Yeri gəlmişkən, güman edilmir ki, Moskva bu nəzəri qurumda ermənilərə liderlik hüququ verər. Amma İrəvan əlləşsə, niyyətinə nail ola bilər. Ermənilər və kürdlər arasındakı bağın öz tarixi kökləri var: hər iki xalq İran xalqları qrupundan qaynaqlanıb. Erməni dili Hind-İran dil qrupunda özəl budağa ayrılır, halbuki? kürd dili qədim İran dilinin birbaşa varisidir. İki xalq Qafqazdan Şərqi Türkiyə və İrana qədər yayılan bir ərazidə yaşayır.

Sözügedən müəllif təəssüflə davam edir ki, Ermənistan hökumətinin bu qədər əhatəli düşünəcəyindən az şey xəbər verir. Amma yenə də arzulanan nəticə üçün özül qurmaqdan ötrü atılması mümkün və zəruri kiçik addımcıqlar, o cümlədən yenidən Qərbi Ermənistan ola biləsi çağdaş Şərqi Türkiyədə yaşayan kürdlər, assuriyalılar və başqa xalqlarla dialoqu fəallaşdırmaq mümkündür. İrəvan bu xalqlar içində Ermənistanın orada geri qaytarılması mümkünsüz keçmişin hansısa əks-sədası deyil, çağdaş bölgənin bir bölümü olduğu haqda ideyanı fəal təbliğ etməlidir. Əlbəttə, Ərəbyanın ideyaları olduqca əcaibdir və bununla belə, daha məhdud addımlar haqda hələlik İrəvanda deyil, Moskavada bəzi ermənilər düşünə bilər. Xırda addımlar hökmən problemlə nəticələnməyəcək, amma bax, böyük oyun durumu partlada bilər.

Los-Ancelesdəki erməni diasporu daha konkret və əməli, amma eyni zamanda siyasi baxımdan təhlükəli planlar qurur. İyunun 2-də Gürcüstanın Cavaxetiya bölgəsində yaşayan ermənilər üçün vəsait toplamağı nəzərdə tutan telemarafon start götürür. Təşkilatçıların iddia etdikləri kimi, bu, "Diasporanın birləşməsi üçün platforma" qurulduqdan sonra mümkün olub. Bu layihənin liderlərindən biri Qaregin Nalbandyan bildirib ki, vəsait toplanışı "Gürcüstana qarşı" yönəlməyib. Əksinə, məqsəd erməni-gürcü münasibətlərini möhkəmlətməkdir. Lakin Cavaxetiyanın daha bir xarici maliyyə qaynağı meydana çıxarsa, Tiflislə münasibətləri pisləşə bilər. Gürcülər bunda açıqca Nalbandyanın dediyi xoş niyyəti görmür. Ermənilər bu bölgənin böyük hissəsində yaşayır. Cavaxetiyanın cənub bölümü Ermənistan Respublikası ilə həmsərhəddir. Orada etnik ermənilər çoxluq təşkil edir və ermənicə danışırlar, gürcülər, ruslar və Qafqazın başqa xalqları azlıqdadır. Cavaxetiyada durum arabir kəskinləşir. "Cavaxk" birləşmiş etnik erməni demokratik birliyi Gürcüstan çərçivəsində ərazi muxtariyyəti tələb edir.

Ermənistan Respublikasının və erməni diasporasının ən görkəmlisi Erməni İnqilabi Federasiyası olan bəzi siyasi birlikləri iddia edirlər ki, Cavaxk (Cavaxetiyanın ermənicə adı) bölgəsi Ermənistana keçməlidir". Bütün bunlar Ermənistanın bir daha bölgədə təhlükəli oyunlar oynadığını aydın surətdə nümayiş etdirir.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Erməni cəmiyyətində yeni kabus - "Azərbaycan bu hərbi təlimləri elə-belə keçirmir", "Növbəti dayanacağımız Şuşadır"

**Azərbaycanın hərb müstəvisində də Ermənistan qarşısında böyük üstünlüyə malik olması və belə durumda Dağlıq Qarabağ münaqişəsini güc yolu ilə çözə biləcəyi gerçəyi işğalçı ölkədə getdikcə daha böyük xof yaradır. Hər halda, Azərbaycan ordusunun mayın 20-də başlayan əməliyyat-taktiki təlimlərinə artıq bir neçə gündür düşmən ölkədə verilən reaksiya da qeyd edilənlərin real təsdiqi qismində çıxış edir.**

Hazırda düşməni narahat edən başlıca məqam ordumuzun təlimlərinin say etibar ilə çoxalması, həmçinin yeni növ silahların nümayişidir. Ermənistanda hesab edirlər ki, Azərbaycan bütün bunları əbəs yerə nümayiş etdirmir və danışıqlar prosesinin nəticə vermədiyini görən kimi hərbi müstəvidə hərəkətə keçəcək. Hadisələrin bu səpkidə inkişafının ölkəsi üçün böyük problem yaradacağıın bildirən Ermənistan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İstitutunun direktoru Ruben Safrastyan bildirir ki, İrəvan Qarabağ üzrə danışıqlar prosesini qoruyub saxlamaq üçün bütün vasitələrdən istifadə etməlidir. Onun sözlərinə görə, istənilən danışıqlar müharibədən daha yaxşıdır: "Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında Vaşinqtonda görüş keçirilməsi ehtimalı istisna edilmir. Son dəfə nazirlər arasında qısa söhbət mayın 13-də Brüsseldə baş tutub. Görüşlərin aktivləşməsinə baxmayaraq, tərəflər hələ də qarşılıqlı güzəştlərdən uzaqdır. İrəvan Qarabağdakı rejimin danışıqlarda birbaşa iştirakını iddia edir, Bakı isə prinsipial olaraq belə bir addımla razı olmadığını qeyd edir". Safrastyanın fikrincə, nəzərəçarpan irəliləyişin olmamasına baxmayaraq, Qarabağ üzrə danışıqlar prosesini qoruyub saxlamaq üçün bütün vasitələrdən istifadə edilməlidir: "İstənilən vaxt cəbhədə vəziyyət gərginləşə bilər, buna görə ayıq-sayıq olmaq lazımdır. Əvvəl olduğu kimi, münaqişənin hərb yolu ilə həllinə cəhd edilməsi mümkündür. Azərbaycan hərbi təlimləri elə-belə keçirmir".

Digər erməni politoloq Ağasi Yenokyanın sözlərinə görə, müharibənin başlanması Ermənistan üçün dağıdıcı nəticələrə gətirib çıxaracaq: "Müharibə təhlükəsi barədə çox danışılır. Bu təhlükə daimi və realdır. Bu vəziyyətdə baş nazir Nikol Paşinyan məhkəmələrə giriş və çıxışların bağlanmasına çağırış etməklə qurduğu yeni şou və bundan sonra yaranan vəziyyətlə Qarabağda baş verə biləcəkləri ört-basdır etməyə çalışır. O, məhkəmələrlə bağlı baş verənlərlə özünü sığortalamaq istəyir. Söhbət Qarabağda ərazilərin qaytarılmasından gedir. Paşinyan bununla demək istəyir ki, Qarabağdakı rejim onu ittiham etmək üçün ərazilər qaytarmağa hazırlaşır. Bununla da Qarabağ və Ermənistan arasında xətt çəkilir. Belə vəziyyətdə Azərbaycan ya güc, ya da digər yolla hədəfinə daha tez çatacaq". Erməni hərbi analitik Karen Ovannisyan isə diqqəti buna yönəldir ki, son təlimlərin gedişində Azərbaycan ordusu tərəfindən Ermənistana belə mesaj göndərilib: "Növbəti dayanacağımız Şuşadır, bizi gözləyin". O, Bakının əraziləri daha tez müddətdə qaytarmaqda israrlı olduğunu vurğulayır.

Beləliklə, yuxarıda qeyd edilənlərdən tam şəkildə aydın görünür ki, Ermənistan Azərbaycanın hərbi təlimlərindən hazırda ciddi qorxu və səksəkə içindədir. Belə görünür ki, işğalçılar bu gedişlə Qarabağ münaqişəsinin Azərbaycan əsgəri vasitəsilə həll ediləcəyinin artıq reallığa çevrilmək üzrə olduğunu hiss etməyə başlayıblar. Bu mənada, son təlimlərdə ordumuzun yüksək döyüş hazırlığı nümayiş etdirməsi, bunun növbəti aprel savaşına hazırlıq olmasının düşmən ölkədə geniş müzakirə edilməsi hardasa təbii də qarşılana bilər. Hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov da məsələyə bu prizmadan nəzər salır: "Sözügedən hərbi təlimlər Azərbaycan Müdafiə Nazirliyinin rəhbərliyi altında keçirilir. Azərbaycanın, demək olar ki, heç bir təlimi müdafiə xarakteri daşımır. Beynəlxalq qurumlar bu münaqişəni sülh yolu ilə həll etməyi öhdəsinə götürmüşdü. Bununla bağlı atəşkəs rejimi elan olunub. Azərbaycan dövləti görür ki, beynəlxalq qurumların, ATƏT-in fəaliyyəti iflic vəziyyətdədir və işğal olunmuş Dağlıq Qarabağ probleminin həlli, demək olar ki, sual altındadır. İndiyə kimi beynəlxalq qurumlar götürdüyü öhdəlikləri yerinə yetirə bilmir. Ermənistan qeyri-konstruktiv mövqe tutmağa davam edir və Azərbaycana müharibədən başqa çıxış yolu buraxmır. Azərbaycan da gec-tez torpaqlarımızın güc yolu ilə azad edilməsinə məcbur olacaq.

Azərbaycanın Silahlı Qüvvələrinin döyüş fəaliyyəti, döyüş hazırlığı potensialı, silahlanma, müasir texnikanın təmin olunmasının bir məqsədi var - işğal olunmuş ərazilərini azad edərək, ərazi bütövlüyünü bərpa etmək. Bu, bizim tarixi haqqımızdır. Heç bir beynəlxalq norma, sənəd Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsinə qadağa qoymur. Əlbəttə, bu fonda Azərbaycan daha çox hücum əməliyyatlı silahlara və təlimlərə üstünlük verməlidir".

Polkovnik təlimlərin "əks-hücum xarakterli" adlandırılmasını belə izah edib: "Ona görə belə deyirik ki, hazırda atəşkəs rejimi olsa da, müharibə davam edir. Azərbaycan bundan sonra əks-hücuma keçərək, düşmənin işğalçı qüvvələrini darmadağın edib, ərazi bütövlüyünü bərpa etməyə hazır olmalıdır. Azərbaycanda keçirilən bütün təlimlərdə proseslər Dağlıq Qarabağda ola biləcək döyüş ssenarisinə uyğun oynanılır. Bütün bu təlimlərdə qazanılan təcrübə yaxın gələcəkdə torpaqlarımızı qaytaranda tətbiq olunacaq. Azərbaycan tərəfi öz addımları haqqında məlumatları gizlətmir. Təlimlərin intensivliyi ərazimizin gec-tez azad olunmasına hesablanıb. Artıq cəmiyyət də bunu tələb edir. Ona görə Ermənistanın narahat olması təbiidir. Hər zaman Azərbaycanda irimiqyaslı təlimlər keçiriləndə Ermənistan cəmiyyətində mövcud olan qorxu və narahatlıq daha da çoxalır. Onlar artıq hər bir təlimin döyüşə çevrilə biləcəyini gözləyir və belə düşünməkdə haqlıdırlar. Ərazi bütövlüyünün bərpa edilməsi üçün Azərbaycanın həm iqtisadi potensialı, həm Silahlı Qüvvələrinin hazırlığı, həm də hərbçilərin peşəkarlığı yetərli səviyyədədir". Ekspert Paşinyanın Dağlıq Qarabağla bağlı son açıqlamalarına da diqqət çəkib: "Artıq Paşinyan Azərbaycan Silahlı Qüvvələrinin gücünü anlayıb. O, son çıxışlarından birində söylədi ki, Qarabağ klanı döyüşləri bərpa edərək, bunu Paşinyanın boynuna atacaq ki, təqsirkar odur. Nəticədə Azərbaycan torpaqları azad edəcək. Ermənistan cəmiyyəti bu saat çaşbaş vəziyyətdədir. Daxildə olan problemlər onlara birləşməyə imkan vermir. Əlbəttə, Ermənistanın bu vəziyyəti artıq beynəlxalq qurumları da bezdirib. Rusiyanın özündə də artıq müəyyən qədər soyuqluq hiss olunur. Çünki ara-sıra Rusiya bazasının Ermənistandan çıxarılması ilə bağlı fikirlər səsləndirilir".

Bütün bunlar həm də o deməkdir ki, döyüş meydanında işğalçı tərəf getdikcə daha gücsüz duruma düşür. Elə bu səbəbdən Azərbaycanın güc nümayişi düşmən ölkədə indi daha böyük vahimə yaradır. Düşməni həm də narahat edən budur ki, indi cəbhədə hər hansı qığılcım genişmiqyaslı savaşa rəvac verə bilər. Özü də burada müdafiə naziri, general-polkovnik Zakir Həsənovun genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində cəbhəboyu zonada olarkən orduya verdiyi təlimat da düşmən tərəfindən diqqətlə nəzərə alınır. Xatırladaq ki, müdafiə naziri bölmələrin döyüşə hazırlıq səviyyəsini yoxlayıb, Ermənistan silahlı qüvvələrinin üzbəüz yerləşən mövqelərini müşahidə edib və əldə olunan məlumatlara əsasən düşmənin törədə biləcəyi təxribat cəhdlərinin qarşısının bütün atəş vasitələrinin tətbiqi ilə dərhal alınması barədə müvafiq tapşırıqlar verib. Bu isə o deməkdir ki, ermənilərin cəbhə təxribatı bundan sonra düşmənə daha baha başa gələ bilər. Həm də belə təxribat düşmənin çox qorxduğu savaşın da başlanmasına rəvac vermək iqtidarındadır.

Düzdür, hələ ki, Azərbaycan sülh danışıqlarına sadiqdir. Lakin Bakı daim bildirir ki, hərb variantı da istisna deyil. Ordunun davamlı olaraq modernləşdirilməsi, yeni silahların alınması, keçirilən təlimlər də məhz Azərbaycanın ərazi bütövlüyünün bərpasına xidmət edir. Düşmən də görür ki, Azərbaycanın qüdrətli ordusu və qətiyyətli, prinsipial mövqeyi var. Eyni zamanda, indiyədək erməniləri sülh danışıqlarına vadar etməyən, yaxud danışıqlar masasına gətirmək istəməyən beynəlxalq təşkilatlar və dövlətlər də dərk etməlidir ki, Azərbaycanın səbri tükənməz deyil. Çünki ermənilər məhz bu vaxta qədər həmin təşkialatların və dövlətlərin yardımı ilə torpaqlarımızı işğal altında saxlaya bilib. Amma artıq vəziyyət dəyişib. Bunu ermənilərin özü də kifayət qədər aydın görür. Hesab edilir ki, düşmən ordumuzun gücünü yenidən görmək istəmirsə və üzləşdiyi çətinliklərin aradan qalxmasını istəyirsə, Ermənistan bütün bunlara səbəb olan Dağlıq Qarabağ probleminin həlli üçün artıq əməli addımlar atmalıdır. İrəvan yaranmış indiki vəziyyətdən nəticə çıxarmalı və Azərbaycanla razılığa gəlib torpaqları azad etməyə başlamalıdır. Əks təqdirdə düşmənin böyük qorxu duyduğu Azərbaycan ordusunun hərəkətə keçməsi qaçılmaz olacaq. Torpaqlarımızın işğaldan azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün təmin olunması isə mütləqdir. Azərbaycan ordusu artıq sübut edib ki, dünya ictimaiyyəti bu məsələnin sülh yolu ilə sonlanmasına nail ola bilməzsə, işğal edilmiş torpaqlarımızın hərbi yolla azad edilməsi mümkündür. Elə məlum aprel döyüşləri zamanı dörd gün davam edən əməliyyatlarda Azərbaycan ordusu qarşıya qoyulan məqsədinə nail oldu.

Özü də bu, müharibə yox, əks-həmlə döyüşləri, cavab zərbələri idi. İndi ordumuz savaşa başlasa, düşmən onu hansı böyük fəlakətlərin gözlədiyini kifayət qədər yaxşı bilir. Məhz bu mənada, indi Ermənistanın seçim üçün nə vaxtı, nə də imkanı var. Düşmən tezliklə zəbt edilmiş ərazilərin azad olunmasına start verməlidir. Əks təqdirdə kifayət qədər qorxu içində izlədiyi hərbi təlimlərin istənilən an real döyüş əməliyyatına keçməsinə də hazır olmalıdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Geridə buraxdığımız həftə "Avroviziya-2019" mahnı müsabiqəsinin qalmaqalları, həyəcanları ilə yadda qaldı. Azərbaycan təmsilçisinin də qatıldığı və gerçək favoritinə çevrildiyi bu müsabiqədə bir sıra xoşagəlməzliklər yaşandı ki, bu, ölkəmizdən də yan keçmədi.**

# Siyasiləşmə və saxtakarlıq "Avroviziya" müsabiqəsinin imicini məhv etdi - İsrail son mərhələ ola bilər

## *Baba Vəziroğlu: "İstedad, mükəmməl ifa, gözəl performans, sənət dəyərləri "Avroviziya" mahnı müsabiqəsində rol oynamır"*

Ümumiyyətlə, beynəlxalq əhəmiyyətli "Avroviziya" mahnı müsabiqəsinin mədəniyyət hadisəsindən daha çox siyasi məna daşıyan bir yarışma olduğu dəfələrlə qeyd edilib. Türkiyənin bu yarışa qatılmaqdan imtina etməsinin səbəbi də konkret olaraq "Avroviziya"nın siyasiləşməsi göstərilir. Hətta Türkiyənin dövlət rəsmiləri dəfələrlə vurğulayıblar ki, "Avroviziya" mahnı müsabiqəsi siyasiləşib.

"Avroviziya" mahnı müsabiqələrinin bir çoxunda həm iştirakçı ölkələr, həm də sadə tamaşaçılar bu halın dəfələrlə şahidi olublar. İsrailin Təl-Əviv şəhərində keçirilən "Avroviziya-2019" mahnı müsabiqəsində də analoji proses baş verib.

Yarışmada ayrı-ayrı dövlətlərə qarşı sərgilənən münasibət, qəbul edilən ədalətsiz qərarlar dediklərimizi bir daha sübut edir. Müsabiqənin gedişində ilk ədalətsizlik Azərbaycanın ərazi bütövlüyünə qarşı edildi, təmsilçimiz Çingiz Mustafayev ifa edərkən monitorda Azərbaycanın xəritəsi təqdim edildi və xəritədə Naxçıvan və Dağlıq Qarabağ göstərilmədi. Əlbəttə, bu bir erməni oyunu idi və onlara havadarlıq edən dövlətlərin dəstəyilə bizə qarşı bu təxribat həyata keçirildi. Bu müsabiqənin siyasiləşdiyini önə çəkən digər məqamlardan biri də yarışmada çıxış edən İslandiya təmsilçilərinin ifası zamanı Fələstin bayrağının monitorda görünməsi idi. Bu kimi halların sözügedən müsabiqədə dəfələrlə təkrarlanması onu göstərir ki, bu müsabiqə siyasi qüvvələrin əlində oyuncaqdır və onlar necə istəsələr, müsabiqə o şəkildə keçirilir. Təbii ki, 2012-ci ildə Azərbaycanın evsahibliyi ilə keçirilən "Avroviziya" müsabiqəsində hansısa qüvvəllərin çirkin niyyətlərinin həyata keçirilməsinə imkan verilmədi. Amma bəzi dövlətlər evsahibliyi edərkən bu kimi xoşagəlməzliklərin baş verməsinə şərait yaradırlar. Bu gün həmin yarışmada yaşanan xoşagəlməz olaylardan biri də indi üzə çıxıb. Belə ki, açıq şəkildə səslərin saxtalaşdırıldığı aydın olub. Bu da "Avrovizya" beynəlxalq mahnı müsabiqəsinin təşkilatçılarının tamaşaçı səslərinin nəticələrini yenidən hesablaması ilə bağlıdır. Bu barədə Avropa Yayım Birliyinin (EBC) bəyanatında bildirilir. Qeyd edilənə görə, bəzi xallar düzgün hesablanmayıb. Səslərin hesablanmasında insan səhvi olub ki, bu da qeyri-dəqiq orta nəticəyə gətirib çıxarıb.

Səslərin yenidən hesablanması nəticəsində ilk üçlükdə dəyişiklik baş verməyib. Əvəzində beş və altıncı yerləri tutan Norveç və İsveç ifaçıları yerlərini dəyişiblər, həmçinin, Şimali Makedoniya 7-ci yeri tutan Azərbaycanı, Belarus isə Almaniyanı geridə qoyub. Əvvəlki nəticələrə görə, yarışmada 7-ci yeri təmsilçimiz tutsa da, yenidən hesablamaya görə, o, 8-ci yerdə qərarlaşıb. Əlbəttə, bu da onu göstərir ki, yerlərin bu şəkildə dəyişdirilməsi də bir siyasətdir. Çingizə qarşı edilənlər də onu deməyə əsas verir ki, Avropa Birliyi dövlətləri Azərbaycana, eləcə də başqa ölkələrə qarşı ikili standartlarla yanaşırlar.

Bu yarışmanın kifayət qədər siyasiləşdiyini deyən Əməkdar incəsənət xadimi, tanınmış şair Baba Vəziroğlu "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, 1956-cı ildən üzü bu yana bu yarışmada mədəniyyət deyil, siyasət, böyük dövlətlərin, qurumların maraqları əsas götürülüb. "Dünyada siyasiləşməmiş bir şeyə rast gəlmək mümkün deyil, bu mənada, dünya çapında keçirilən "Avroviziya" yarışması da istisna deyil. "Avroviziya" yarışması keçirilən ildən indiyə qədər siyasi məqsədlərə xidmət edib. "Avroviziya" 1956-cı ildən bu günə kimi siyasi müstəvidə təqdim edilən bir şoudur. Bu yarışma sənət göstərən tamaşa deyil. Bu yarışmanın ana xəttini, əsas hədəfini siyasət, siyasi məqsədlər, müxtəlif dövlətlərin maraqlarının təmin olunması təşkil edir. Burada da müxtəlif dövlətlərə qarşı ikili standartlarla yanaşma var. Bu il də "Avroviziya"da bu kimi halların baş verməsi, siyasi oyunların, maraqların ortaya qoyulması hallarına rast gəlindi və bu da həmin müsabiqənin gerçək mahiyyətinə xasdır. Bilirsiniz ki, bəzən bəzi ölkələrin yarışmada liderliyi ələ almasında maddi vəsait, bəzən siyasi təpkilər, siyasi rəğbət böyük rol oynayır. Müsabiqə iştirakçıları olan ifaçılar isə ancaq bu oyunun oyunçularıdır, bir frazaya görə, "kiçik peşkaları"dır, qalan hamısı siyasətdir. Ölkələrin bir-birinə səs verməsi heç bir mədəniyyət kriteriyalarına, incəsənət dəyərlərinə əsaslanmır, yalnız siyasi meyarlara söykənir. Ona görə də analoji hallar baş verir".



*"Ölkələrin bir-birinə səs verməsi heç bir mədəniyyət kriteriyalarına, incəsənət dəyərlərinə əsaslanmır, yalnız siyasi meyarlara söykənir"*

*"Burada da müxtəlif dövlətlərə qarşı ikili standartlarla yanaşma var"*

B.Vəziroğlunun sözlərinə görə, Türkiyənin də bu yarışmadan uzaqlaşması elə bu amilə görə olub. Şair bildirdi ki, yarışmada baş verən siyasi oyunlar, onun siyasi alətə çevrilməsi başqa dövlətlərin də "Avroviziya"dan qopmasına səbəb ola bilər. "Çünki əvvəlcədən məğlubiyyətin qoxusunu hiss edən dövlətlər, eləcə də iqtisadi cəhətdən zəif olan kasıb ölkələr geri çəkilirlər. Görürsünüz ki, sənət burada neçənci yerdə gəlir... Birinci siyasi motivlər, maddi dividendlər, ölkələrin bir-birinə münasibəti gəlir. Bizim səs gözlədiyimiz, umduğumuz ölkələr vardı ki, onlar bizə heç xal vermədilər, bəziləri isə çox az xal verdilər. Amma birdən-birə Rusiya bizə ən yüksək xal verdi. Mən həmişə deyirəm ki, Rusiya belə kritik məqamlarda öz strateji partnyorlarına arxa çevirmir. Amma o biri ölkələr bizi təəccübləndirdilər. Mən uzun illər siyasətin içində olan bir şəxs kimi heç nəyə təəccüblənmirəm. Ona görə də biz heç final turuna keçə bilməsək də, təəccüblənməzdim. Halbuki, bizim Çingiz bu müsabiqədə iştirak edənlərin 90 faizindən bir baş yuxarı idi. Ancaq bunlar əsas sayılmır, istedad, mükəmməl ifa, gözəl performans, sənət dəyərləri "Avroviziya" mahnı müsabiqəsində rol oynamır, tamamilə siyasi ölçülər əsasında qaliblər müəyyənləşdirilir, ölkələrə rəğbət göstərilir, iştirakçılara münasibət sərgilənir. Sevinirik ki, neçənci yer qazanmasından asılı olmayaraq, Çingiz çox parlaq çıxış nümayiş etdirdi. O yarışmanı öz siyasi məqsədləri üçün istifadə edənlər də gördülər ki, Çingiz yaxşı çıxış etdi, sadəcə, siyasi oyunlar başqa şeylər tələb etdiyi üçün, bunu etiraf etmədilər. Gerçəklik bundan ibarətdir ki, "Avroviziya" siyasi məqsədlərin həyata keçirilməsi üçün istifadə edilən bir meydandır" - deyə B.Vəziroğlu bildirdi.

***İradə SARIYEVA***

# ABŞ Hitler üzərində qələbənin 75 illiyi şərəfinə üçbayraqlı qızıl medal buraxdı - SSRİ-nin bayrağı "unuduldu"...

## *Firdovsiyyə Əhmədova: "SSRİ-nin də bayrağı müttəfiq dövlətlərin bayrağı ilə birgə həmin sikkədə öz əksini tapmalı idi"*

**Amerikanın "Bradford Exchanget" şirkəti faşizm üzərində qələbənin 75 illiyi münasibətilə yeni bir pul sikkəsi (medal) buraxıb. Sözügedən sikkə 24 karat qızılla süslənib. Buraxılan sikkənin qiyməti 39, 99 dollardır. Qeyd edək ki, bu sikkə rəsmi pul vahidi kimi dövriyyədə deyil, ondan yalnız kolleksiyalar və müəyyən hədiyyələr qismində istifadə etmək olar.**

Üzərində ABŞ-ın 33-cü prezidenti Harri Trümenin və ordu generalı Duayt Eyzenhauerin şəkilləri əks olunan sikkənin üzərində, həmçinin, ABŞ, Fransa və Böyük Britaniyanın bayraqları olsa da, II Dünya Müharibəsində qələbənin qazanılmasında böyük rolu olan SSRİ-nin bayrağı əks olunmayıb.

Faşizm üzərində qələbənin qazanılması üçün birgə fəaliyyət göstərən 4 müttəfiq ölkədən birinin bayrağının əks olunmaması təəccüb doğurur. SSRİ-nin bayrağının həmin sikkədə yer almaması həqiqətən də yanlışlıqdır.

Ekspertlər bunu ciddi səhv, tarixi saxtalaşdırmaq kimi dəyərləndirirlər. Mütəxəssislər qeyd edirlər ki, II Dünya Müharibəsi 1939-cu ilin 2 sentyabr tarixində başlayıb, 1945-ci il sentyabrın 2-də Yaponiyanın məğlubiyyəti ilə başa çatıb. Onlar hesab edirlər ki, faşizm üzərində qələbənin 75 illiyinə həsr edilən qızıl sikkənin üzərində SSRİ-nin bayrağının əks olunmaması SSRİ tərkibində həmin müharibədə iştirak edən keçmiş ittifaq respublikalarına da qarşı ədalətsizlikdir.

Azərbaycan II Dünya Müharibəsində həm insan, həm neft, həm də digər texniki resurslarına görə xüsusi fəaliyyət göstərib. Məlumdur ki, Azərbaycandan II Dünya Müharibəsinə 600 min nəfər gedib və onlardan 200 min nəfəri geri dönməyib.

**Tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Firdovsiyyə Əhmədova mövzunu "Bakı-Xəbər"ə şərh edərkən bildirdi ki, SSRİ hazırda mövcud olmasa da, onun faşizm üzərində qələbənin qazanılmasında rolu danılmazdır.** F.Əhmədovanın fikrincə, SSRİ-nin bayrağını sözügedən sikkədə əks etdirmək istəməyiblərsə, keçmiş SSRİ tərkibində olan və müharibədə iştirak edən, hazırda müstəqil olan dövlətlərin bayraqları həmin sikkədə əks olunmalı idi. "Bu sikkənin buraxılması tarixi mövzuya müraciətdir. Yəni o sikkə günümüzlə bağlı rəmzi olaraq buraxılmayıb. Bu sikkənin buraxılmasının mahiyyətində tarixə müraciət etmək durubsa, təbii ki, həmin tarixi gerçəkliyi də özündə əks etdirməlidir. Gerçəklik də ondan ibarətdir ki, bu gün bayraqları həmin sikkədə əks olunan dövlətlər bayrağı o sikkədə əks olunmayan keçmiş SSRİ ilə II Dünya Müharibəsində müttəfiq idilər. Bu baxımdan, qələbənin qazanılmasında, qaliblər sırasında sözsüz ki, SSRİ-nin də xüsusi aparıcı yeri var idi. Bu hər hansı bir ideologiyadan, siyasi münasibətdən asılı olmayan bir gerçəklikdir. Bu bir faktdır və bunu heç kim geri qayıdıb tarixdən silə bilməz. Təbii ki, SSRİ-nin də simasında həmin Sovetlər Birliyinə daxil olan müttəfiq respublikaların rolundan da söhbət gedir. SSRİ-ni təşkil edən müttəfiq respublikaların hər birinin canlı və maddi itkisi hesabına faşizm üzərində qələbə əldə olunub. O qələbənin qazanılmasında xidməti olan beynəlxalq subyekt kimi sözsüz ki, o dövrdən bəhs edən bir tarix üçün SSRİ-nin də bayrağı müttəfiq dövlətlərin bayrağı ilə birgə həmin sikkədə öz əksini tapmalı idi. Bu sikkədə SSRİ-nin bayrağı əks olunmasa da, adı qeyd olunmasa da, faşizm üzərində qələbənin ildönümlərinə həsr edilən təntənəli tədbirlərdə indiki Rusiya Federasiyasının dövlət başçısı da həmin o dövlətlərin başçıları ilə birgə iştirak edir. Ancaq burada bir tarixi saxtakarlıq var ki, SSRİ-nin varisi yalnız indiki Rusiya Federasiyası deyil, SSRİ-ni təşkil edən müttəfiq respublikaların hər birinin faşizm üzərində qələbənin qazanılmasında payı var. O cümlədən də Azərbaycanın. Yəni burada həm də söhbət o dövrdə Azərbaycan SSR-in II Dünya Müharibəsində həm canlı, həm də maddi qüvvəsindən gedir.






*"... bu tam olaraq saxtakarlıq və ədalətsizlikdir"*




Hesab edirəm ki, əgər faşizm üzərində qələbə ilə bağlı müasir anlamda dövlətlərin adları hansısa bir sikkələrdə, medallarda əks olunursa, onda keçmiş beynəlxalq subyekt olan SSRİ-nin üzvü olan, hazırda müstəqil olan dövlətlərin hər birinin adı qalib dövlətlərin adları ilə birgə sadalanmalıdır. Ya keçmiş subyekt kimi SSRİ-nin adı göstərilməli, ya da keçmiş SSRİ respublikalarının adları da o siyahılarda yer almalıdır".

F.Əhmədovanın sözlərinə görə, həmçinin, faşizm üzərində qələbə ilə bağlı keçirilən təntənəli tədbirdə keçmiş müttəfiq respublikaların başçıları iştirak etməlidirlər. "Əks təqdirdə bu yalnız saxtakarlıq yox, həm də tarixi ədalətsizlik olar. Çünki o qələbəni yalnız Rusiya Federasiyası qazanmayıb. Buraxılan sikkə belə təəssürat yaradır ki, II Dünya Müharibəsində bir sıra Avropa dövlətləri iştirak edib, amma SSRİ kimi böyük bir ərazini və əhalini əhatə edən ölkə iştirak etməyib, bu tam olaraq saxtakarlıq və ədalətsizlikdir"- deyə F.Əhmədova qeyd etdi.

***İradə SARIYEVA***

# "Unibank"ın kredit siyasətindən vətəndaş qeyri-məmnunluğu artır- daha bir fakt...

**"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Prezident fərmanının icrasına başlanıldığı gündən əhalinin bəzi banklardan narazılığı artmaqda davam edir. Biz bu istiqamətdə apardığımız araşdırmalar zamanı müəyyən etmişik ki, vətəndaşlara dövlət tərəfindən müəyyən edilən kompensasiyaların ödənişində daha çox problemlərin yaşandığı banklardan biri "Unibank"dır.**




Bizə olunan şikayətlər daha çox bu məzmundadır. Vətəndaşlar qeyd edirlər ki, saytda adlarına müəyyən məbləğ kompensasiya müəyyən edilsə də, onların adına olan borc qrafasında 0 rəqəmi yazılsa da, "Unibank" onlardan faiz tutumunu davam etdirir. Araşdırmamız zamanı çox maraqlı məlumatlara rast gəlmişik. Məsələn, bank bir müddət əvvəl bəzi müştərilərini çağırıb dollar kreditini manata keçirməyi təklif edərkən, bununla razılaşan müştərilərin adına, sən demə, yeni kredit müqaviləsi rəsmiləşdiriblər. Yəni artıq dövlətin etdiyi güzəşt yeni müqaviləyə şamil olunmadığı üçün, müştəri məcburdur ki, dövlətdən aldığı kompensasiyanı başqa müqavilənin faizinə ödəsin.

Bizə müraciət edən vətəndaş İradə Kərimova bildirir ki, o, "Unibank"dan 4 min dollardan bir az artıq məbləğdə kredit götürüb: "Devalvasiyadan sonra ödənişi edə bilmədim. Onlar məni məhkəməyə verdilər. Məhkəmənin qərarı ilə mənim əməkhaqqımın 50 faizi tutulub banka verilirdi. Prezident fərman verəndən sonra mənə 1128 manat kompensasiya yazılıb. Maraqlıdır ki, həmin məbləğdən 705 manat mənim "Bank of Baku"ya olan borcuma görə çıxılıb. Halbuki, mən ora ödənişimi edirdim. Bunu çıxmaqla "Bank of Baku" krediti bağlayıb. Mən başa düşə bilmirəm, mənim "Unibank"a olan borcuma görə təyin edilən kompensasiya niyə başqa banka ödənilməlidir? Hətta çıxılandan sonra yerdə qalan 423 manatı belə "Unibank" mənə ödəmək istəmir. Saytda mənim kredit borcumun qalmadığı göstərilir. Mənə heç bir mesaj gəlmədiyi üçün məsələmlə maraqlandım. Deyiblər ki, mənim banka guya 800 manat borcum qalıb. Axı hansı borcdan söhbət gedə bilər? Saytda mənim borcumun olmadığı yazılır. Prosesə 3 gün qalıb. Maraqlıdır, mənim "Unibank"a borcum varıydısa, elə kompensasiyadan ödəyəydilər də. Niyə başqa banka köçürürdülər? Çox xahiş edirəm, mənə köməklik edin. Mesaj gəlmədiyi üçün, apelyasiyaya da verə bilmirəm".

Yaranmış vəziyyət, xüsusilə də vətəndaşa müəyyən edilən kompensasiyanın başqa yerlərə transfer edilməsinin nə dərəcədə qanuni olub-olmamasını dəqiqləşdirmək üçün "Unibank"ın mətbuat xidmətinin rəhbəri Sülhiyə Şirinova ilə əlaqə saxladıq. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə köçürmələrin mümkünlüyü fərmanda da öz əksini tapıb: "Fərqi yoxdur hansı banka görə kompensasiya müəyyən edilib. Həmin məbləğdən başqa bankın borcları da çıxıla bilər. Borcların çıxılması, hara yönəldilməsi ilə bağlı məsələni bank yox, Palata həll edir. Bizim vəzifəmiz budur ki, yerdə qalan son məbləği ödəyək. Bizdən bu istiqamətdə şikayətin çox olması da təbiidir. Çünki ən çox kredit götürən müştərisi olan bank bizik. Kompensasiyalardan hansı halda silinmənin getməsi ilə bağlı mən sizə bankımızın uyğun sahəyə cavabdeh olan şəxsinin mövqeyini təqdim edə bilərəm".

Bankın Satış və xidmətə dəstək departamentinin müdiri Mikayıl Məmmədovun sözlərinə görə, fərmanın əhatə etdiyi ən çox müştəri sayı "Unibank"ın payına düşür: "Fərmanın vacibliyini, istər müştərilər, istərsə də bank sektoru üçün böyük əhəmiyyətini ilk gündən dərk edərək, bütün resurslarımızı fərmanın icrasının vaxtında bitməsi üçün səfərbər etmişik.

Kompensasiya siyahısında olan hər bir müştərimizin dövlətin ona ayırdığı vəsaiti vaxtında alması üçün bank olaraq bir çox tədbirlər həyata keçiririk. SMS göndərməklə kifayətlənməyərək, bu həftənin əvvəlindən müştərilərə birbaşa zənglər edirik. Bank əməkdaşları müştərilərin sistemdəki əlaqə nömrələrinə zəng edərək, kompensasiyalarını götürmələri üçün filiala dəvət edirlər. Bu zənglər zamanı biz gözləmədiyimiz vəziyyətlə qarşılaşdıq. Məlum oldu ki, bir sıra müştərilərin ona kompensasiya hesablandığından, ümumiyyətlə, xəbəri yoxdur. Bank əməkdaşının zəngindən sonra müştəri filiala gəlib ona çatan məbləği götürür. Kompensasiya alacağını məhz "Unibank" əməkdaşının zəngindən öyrənən onlarla müştərimiz oldu. Birbaşa zəng zamanı bəzi müştərilərimizdən bankdan gələn kompensasiya məbləğini bildirən SMS-i oxumadıqlarını deyənlər də oldu. Məlumatsız olan bu müştərilərə xəbər vermək və onlara düşən vəsaiti əldə etmələrinə yardımçı olmaq bizi çox sevindirir. Bank olaraq bütün müştərilərimizin prosesin sonunadək kompensasiya məbləğini əldə etməsində maraqlıyıq.

Son günədək biz qalan bütün müştərilərimizlə əlaqə yaratmağa çalışacağıq. Əlaqə saxlanması heç cür mümkün olmayan müştərilərə hesablanmış kompensasiya məbləğləri onların bankımızda olan hesabına köçürüləcək və müştəri istənilən vaxt gəlib bu vəsaiti hesabından götürə bilər".

"Hansı hallarda müştəriyə hesablanmış kompensasiya onun borcuna silinə bilər" sualına isə bank rəsmisi belə cavab verib: "Cənab Prezidentin fərmanında da qeyd olunduğu kimi, kompensasiyaların ödənişində əsas məqsəd müştərilərin kredit yükünün azaldılması, üzləşdiyi maliyyə itkisinin qarşısını almaqdır. Kompensasiya məbləğindən silinmələr yalnız müştərinin gecikmədə olan və ya məhkəmə qərarı olan krediti üzrə aparıla bilər. Bu proses isə müştərinin kredit yüklülüyünün azaldılmasına, məhkəmədə olan işlərin azalmasına xidmət edir. Gecikdirilən borcdan əlavə məbləğ isə müştərinin özünə qaytarılır. Heç bir gecikməyən kredit üzrə silinmə ola bilməz və olmayıb".

*Məhəmmədəli QƏRİBLİ*

# Yalnız 2012-ci ildən sonra kolleci bitirənlər ali məktəbə imtahansız qəbul olunacaq

**Yalnız 2012-ci ildən sonra kolleci bitirənlər ali məktəbə imtahansız qəbul olunacaq. "Trend"in məlumatına görə, bunu Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev deyib.**



Onun sözlərinə görə, "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları"na əsasən, bakalavrlar ali təhsil pilləsi üzrə aldıqları ixtisasdan asılı olmayaraq, orta ixtisas təhsili müəssisələrinə ödənişli əsaslarla müsabiqədənkənar qəbul oluna biləcəklər. Eləcə də subbakalavrlar qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olmaq imkanı əldə edəcəklər.

Y.Piriyev bu qaydaların 2019-2020-ci tədris ili üzrə tələbə qəbulu zamanı tətbiq ediləcəyini söyləyib.

O bildirib ki, yeni qaydalara görə, subbakalavrlar ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olunarkən həmin təhsil müəssisələrində yalnız tədris dili orta ixtisas təhsili pilləsində təhsil aldıqları dilə uyğun ixtisasları seçmək hüququna malikdirlər. Müsabiqə zamanı subbakalavrın orta müvəffəqiyyət göstəricisi (ÜOMG) və təhsil haqqında sənədinə (attestata) üstünlük veriləcək.

Ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə təhsil almaq istəyən subbakalavr isə DİM tərəfindən təşkil olunmuş qabiliyyət imtahanlarında müəyyən edilmiş cədvəl üzrə ödənişli əsaslarla iştirak edəcək.

Y.Piriyev əlavə edib ki, ali təhsil pilləsinin bakalavriat səviyyəsini normativ təhsil müddətindən sonrakı 15 il müddətində (həqiqi hərbi xidmət müddəti istisna olmaqla) başa vurmayan və ali təhsil müəssisəsindən xaric olunmuş şəxslər də təhsillərini orta ixtisas təhsili müəssisələrində davam etdirmək hüququna malikdirlər. Ali təhsilin bakalavriat səviyyəsini başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisəsinə köçürülməsi onların qəbul olunduqları və köçürüldükləri ixtisasların yalnız eyni ixtisas qrupuna daxil olduğu halda aparılacaq.

Xarici ölkələrin təhsil müəssisələrinin və ölkəmizdə fəaliyyətini dayandırmış ali təhsil müəssisələrinin bakalavriat səviyyəsini başa vurmayan şəxslərin köçürülməsi məsələsinə orta ixtisas təhsili müəssisəsinin vəsatəti əsasında, Azərbaycan Respublikasında ali təhsilin bakalavriat səviyyəsini başa vurmayan şəxslərin köçürülməsi məsələsinə isə transfer.edu.az elektron portalı vasitəsilə nazirlik tərəfindən baxılacaq. Xarici ölkədə qiyabi (distant) təhsil alan və (və ya) fəaliyyət göstərdiyi ölkədə akkreditə olunmayan ali təhsil müəssisəsindən Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə tələbələrin köçürülməsinə yol verilmir.

Nazirlik rəsmisi "Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası"nın təsdiq edilməsi haqqında da danışılıb. Bildirilib ki, beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən ali təhsil müəssisələrinə tələbə qəbulu üzrə müsabiqədə iştirak etmədən bakalavriat səviyyəsində təhsil almaq üçün ali təhsil müəssisəsinə müsabiqədənkənar yerləşdiriləcək.

Y.Priyev əlavə edib ki, beynəlxalq və respublika fənn olimpiadasının qalibinin tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti 2 tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qalibi isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti 5 tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ var.

Tədbirdə, həmçinin Nazirlər Kabinetinin "Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Şərtləri"nin təsdiq edilməsi haqqında qərarına da toxunulub.

Qeyd edilib ki, beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu barədə məlumat verilib. Abituriyentlərin müsabiqədənkənar qəbulu Dövlət İmtahan Mərkəzi tərəfindən beynəlxalq səviyyədə akkreditasiya olunan IB Diploma Programme (Beynəlxalq Bakalavriat Diplom Proqramı), Advanced Level of General Certificate of Education (Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi) və Advanced Placement (Yüksək yerləşdirmə) təhsil proqramları üzrə aparılacaq.

Xatırladaq ki, bu qaydalar təhsil naziri Ceyhun Bayramovun rəhbərliyi ilə "Təhsil haqqında" qanuna dəyişikliklərin edilməsi üçün Təhsil Nazirliyi tərəfindən hazırlanan təkliflər paketi əsasında hazırlanlb. Bu təkliflər paketi əsasında qanuna 62 düzəliş edilib.

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BABAYEV RZABALA RAFİQ oğlu**



18 may 1973-cü ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Əzizbəyov (indi Xəzər) rayonunda yaşamışdır. Xəzər RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Rzabala Rafiq oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 fevral 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Rzabala Rafiq oğlu 16 fevral 1993-cü il tarixində Ağdərə rayonunun Drombon (indi Heyvalı) kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Rzabala Rafiq oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV SALAM İSLAM oğlu**

2 mart 1976-cı ildə Azərbaycan Respublikasının Neftçala rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Neftçala rayonunun Aşağı Surra kəndində yaşamışdır. Neftçala RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Salam İslam oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 26 aprel 1994-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.



Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Salam İslam oğlu 26 aprel 1994-cü il tarixində Ağdam rayonunun Nəmirli kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Salam İslam oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV SƏDİ BİNNƏTƏLİ oğlu**



7 dekabr 1970-ci ildə Azərbaycan Respublikasının Yardımlı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Sumqayıt şəhərinin Hacı Zeynalabdin Tağıyev qəsəbəsində yaşamışdır. Sumqayıt ŞHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Sədi Binnətəli oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 12 sentyabr 1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Sədi Binnətəli oğlu 12 sentyabr 1992-ci il tarixində Laçın rayonunun Suarası kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Sədi Binnətəli oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV SƏFƏR ƏLİFƏTTAH oğlu**

16 mart 1973-cü ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Əzizbəyov (indi Xəzər) rayonunda yaşamışdır. Xəzər RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Səfər Əlifəttah oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 1 yanvar 1992-ci ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.



Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Səfər Əlifəttah oğlu 1 yanvar 1992-ci il tarixində Ağdam rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Babayev Səfər Əlifəttah oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Açılan yeni iş yerlərinin 70 faizdən çoxu Bakının payına düşür - müsbət prosesin neqativ cəhəti...

**Bu ilin birinci rübündə özəl sektorda yeni iş yerlərinin dörddə biri açılıb. Ölkədə bir sıra dövlət qurumlarının strukturunu optimallaşdırmaq və onların idarə edilməsini təkmilləşdirmək üçün bir sıra tədbirlərin görülməsinə baxmayaraq, hələ də dövlət iş yerlərinin açılmasında üstün mövqeyə malikdir. Özəl sektorun bu yöndə fəaliyyəti tam qanedici deyil.**



*"İtaliya daxil olmaqla, bir sıra inkişaf etmiş ölkələrdə dövlət subsidiyalaşdırma yolu ilə sahibkarları regionlarda iş yerləri açmağa təşviq edir"*

## ***Vüqar Bayramov:*** *"Biznes və sahibkarlıq daha çox Bakıda inkişaf edib formalaşdığına görə yeni iş yerləri əsasən paytaxtda açılır"*

Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-mart aylarında, yəni bu ilin birinci rübündə 53,9 min yeni iş yeri açılıb. Yeni iş yerlərinin 55 faizi yeni müəssisə və təşkilatların payına düşür. 25,3 faizi isə mövcud müəssisə və təşkilatlarda, 0,3 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 19,4 faizi isə digər tədbirlər üzrə yaradılıb.

Bununla yanaşı, cari ilin yanvar-mart aylarında ölkədə 3,4 min iş yeri bağlanıb. Bu dövrdə bağlanmış iş yerlərinin 39,4 faizi qeyri-dövlət sektorunun payına düşüb. İş yerlərinin 40,2 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması, 59,8 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlar-da aparılan ixtisarlarla əlaqədar bağlanıb.

Diqqətçəkən məqam ondan ibarətdir ki, yeni iş yerləri əsasən bölgələrdə deyil, Bakıda açılır. Məsələ ondadır ki, Bakı şəhərinin yeni iş yerlərinin strukturundakı payı 72,9 faiz təşkil edir.

Bölgələrdə bir sıra proqramların, layihələrin həyata keçirildiyini nəzərə alsaq, niyə yeni iş yerlərinin açılmasında onların payı aşağıdır?

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisadçı-ekspert Vüqar Bayramov bunun səbəbini bir sıra amillərlə əlaqələndirdi:** "Məsələ ondadır ki, Azərbaycanda biznesin əhəmiyyətli hissəsi Bakının payına düşür. Bakı və Abşeron iqtisadi rayonu, praktiki olaraq, ümumi biznesin 85 faizindən çoxunu təşkil edir. Biznes və sahibkarlıq daha çox Bakıda inkişaf edib formalaşdığına görə yeni iş yerləri əsasən paytaxtda açılır. Çünki yeni iş yerləri təkcə dövlət büdcəsi hesabına yaranmır. Eyni zamanda, özəl sektorun özünün formalaşdırdığı iş yerləri hesabına yaranır. Özəl sektor da daha çox Bakıda iş yeri yaratmaqda maraqlıdır. Ona görə ki, Bakıda alıcılıq qabiliyyəti daha yüksəkdir, ixtisaslı kadrlar əsasən burada cəmləşib. Ona görə də belə mənzərə yaranıb. Təklif edirik ki, regionlarda daha çox iş yerinin açılması ilə əlaqədar dövlət tərəfindən təşviqedici fəaliyyətlər həyata keçirilsin. Məsələn, İtaliya daxil olmaqla, bir sıra inkişaf etmiş ölkələrdə regionlarda fəaliyyət göstərən sahibkarlar üçün xüsusi güzəştlər var. Dövlət subsidiyalaşdırma yolu ilə sahibkarları regionlarda iş yerləri açmağa təşviq edir. Oxşar praktikanın Azərbaycanda da tətbiq edilməsi məqsədəuyğun olardı. Belə olsa, o zaman regionlarda daha çox iş yerləri açılar".

***Vidadi ORDAHALLI***

**Araşdırmalar göstərir ki, ailələrdə mövcud olan zorakılıq halları bir sıra səbəblərdən qaynaqlanır. Onlardan biri kimi qadınların müstəqil olmaması, daha çox ailədən, həyat yoldaşından, cəmiyyətdən asılı olması göstərilir. Bəziləri bildirirlər ki, əsasən bölgələrdə yaşayan qadınlar bu problemdən daha çox əziyyət çəkirlər.**

# Azərbaycanda qadın zorakılığı faktlarını kimlər hansı maraqla şişirdirlər...

## *Fatimə Hacıbəyli: "Azərbaycanda qadın zorakılığı qorxulu həddə deyil, çünki xanımlarımız öz hüquqlarını bilir"*



*"Qadınların üzləşdikləri problemlər zamanla işıqlandırıldığı, həlli istiqamətində addımlar atıldığı üçün, qadın zorakılığı azalıb"*

Kütləvi informasiya vasitələrinin monitorinqi göstərir ki, Azərbaycanda qadına qarşı fiziki zorakılıq adi hal alıb. Hətta hər 6 azərbaycanlı qadından birinin əri tərəfindən döyüldüyü iddia olunur. Ancaq rəsmilər isə bildirirlər ki, Azərbaycanda qadın zorakılığı ictimaiyyətə çatdırıldığı formada deyil. Belə ki, Azərbaycanda qadınlara qarşı zorakılıqla bağlı statistikalar saxtalaşdırılır.

Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin baş məsləhətçisi Aynur Veysəlova media nümayəndələrinə açıqlamasında qeyd edib ki, qadın zorakılığı faktları şişirdilmiş formada cəmiyyətə təqdim olunur: "Bu hallar zorakılıqla bağlı açılan cinayət işlərinin maddəsinin dəyişdirilməsində özünü büruzə verir. Məsələn, bizdə olan məişət zorakılığına məruzqalma halları ilə bağlı rəqəmlər üst-üstə düşmür. İlin ortasında Komitəyə Cinayət Məcəlləsinin 125-ci maddəsilə (intihar həddinə çatdırma) açılmış işlərlə bağlı təqribən 60 fakta dair məlumatlar daxil olur. İlin sonunda statistikada rəqəm 37 göstərilir. Daxili İşlər Nazirliyinə zəng vurub rəqəmlərdəki fərqin səbəbini soruşanda, deyirlər ki, "araşdırmalarla açılmış cinayət işinin maddəsi dəyişdirilib".

Nəinki qadınlarla, ümumiyyətlə, insan amili olan proseslərdə diqqətli olmaq lazımdır. Problemləri gizlətmək yox, açmaq lazımdır. Rayonlara səfər zamanı hüquq-mühafizə orqanlarından erkən nikah, zorlama halları ilə bağlı məlumat istəyəndə tarixdən, Tomrisdən danışırlar. Deyirəm, mənə bu lazım deyil. Mən tarixi də bilirəm, Tomrisi də tanıyıram. Mənə fakt lazımdır, zorlama, erkən nikahla bağlı fakt verin".

Ekspertlər də hesab edirlər ki, bu gün ölkədə qadın zorakılığı əvvəlki illərlə müqayisədə xeyli azalıb.

**"Vəfa" Sosial İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda qadın zorakılığı qorxulu həddə deyil:** "Çünki qadınlar artıq öz hüquqlarını bilir. Etiraf edək ki, indi qadının həyat yoldaşı ona artıq nəsə desə, qadın illər öncə ilə müqayisədə sakit dayanıb kişinin təhqirinə dözməyəcək. Artıq qadınlar kişilər tərəfindən əzilmələrinə razı deyillər. Fiziki zorakılığa məruz qalan qadınlar artıq yaşadığı sıxıntıları hüquq-mühafizə orqanlarına deməkdə çətinlik çəkmirlər. Məlumdur ki, əvvəllər qadınlar ərləri tərəfindən şiddətə məruz qaldıqlarını hüquq-mühafizə orqanlarına deyə bilməzdilər. Ancaq indi insanların düşüncəsi dəyişib.

Həmsöhbətimizin sözlərinə görə, qadınların fiziki zorakılığa məruz qalması azalıb: "Türkiyədə "Sən Anlat Karadeniz" adlı teleserial yayımlanır. O serialda qadınların necə zorakılığa məruz qaldığı göstərilir. Əksər insanlar elə düşünür ki, kinolarda baş verən hadisələr real həyatda da yaşanır. Ancaq bu belə deyil".

F.Hacıbəyli onu da vurğuladı ki, qadınların üzləşdikləri problemlər zamanla işıqlandırılır, həlli istiqamətində addımlar atılır. Cəmiyyətdə də belə bir fon yaranır ki, ailədə əzilən, haqları pozulan ancaq qadınlardır. Halbuki, qadın zorakılığının qarşısının alınması istiqamətində aparılan işlər sayəsində bu sahədə vəziyyət müsbətə doğru dəyişib: "Bəzi xəbər saytları qadın zorakılığı ilə bağlı həqiqətə uyğun olmayan xəbərlər yazırlar. Bu düzgün deyil. Tək qadın zorakılığı deyil, məişət zorakılığı kimi faktları özlərinə sərf edən formada ictimaiyyətə çatdırırlar. Nəzərə almaq lazımdır ki, bu cür xəbərlər şiddətə məruz qalan qurbanın həyatını risqə ata bilər. Ümumiyyətlə, məişət, qadın zorakılığı ilə bağlı mövzulara həssas yanaşmaq lazımdır".

***Günel CƏLİLOVA***

# Qadın geyim mağazalarının "test otaqlarında" kamera biabırçılığı...






**Bu gün gizli kameraların şəxsi həyatımıza müdaxiləsindən heç kim sığortalanmayıb. İctimai və rəsmi yerlərdə, tibb və təhsil müəssisələrində və s. kameraların quraşdırılması adi hal olub müsbət qarşılansa da, kameraların getdikcə hər yerdə - mağazalarda, kafe və restoranlarda olması əvvəlcə narahatlığa səbəb olurdu.**

Belə ki, insanlar sərbəst davranmaqdan çəkinib daim özlərinin izləndiyini hiss edirdilər. Tədricən buna alışsaq da, son zamanlar gizli kameraların geyim mağazalarının soyunub-geyinmə otağında yerləşdirilməsi səbrin daşmasına səbəb olub.

Bu günlərdə qadın geyim mağazasının soyunub-geyinmə kabinesinə yaxın məsafədə müşahidə kamerasının yerləşdirilməsi xəbəri "Zara" mağazasından gəldi. Adıçəkilən mağazanın soyunub-geyinmə kabinəsinə müşahidə kamerası quraşdırılması iddia olunur. Bakı sakini Xədicə Kərimova "Baku.ws"ə şikayətində bildirib ki, ticarət mərkəzlərinin birində yerləşən "Zara" mağazasında paltarı yoxlamaq üçün kabinəyə keçərək əynini dəyişib. Sonradan isə orada müşahidə kamerasının olduğunu görüb: "Axı nə səbəbə kimsə mənə baxmalıdır? Sonradan həmin görüntülərin internetdə yayılmayacağına kim zəmanət verir?".

## *"Zara" mağazalar şəbəkəsi - Mətin Nurullayev: "Geyinib-soyunma otaqlarının yaxınlığında yerləşən nəzarət kameraları sırf mağazaların təhlükəsizliyinin təmin edilməsi üçün quraşdırılıb"*

## *Eyyub Hüseynov: "Geyim mağazalarının soyunub-geyinmə otağında gizli kameraların quraşdırılması istehlakçıların hüquqlarının birmənalı şəkildə pozulmasıdır"*

**Məsələ ilə bağlı "Zara" mağazalar şəbəkəsinə müraciət etdik. "Zara" mağazalar şəbəkəsinin rəsmisi Mətin Nurullayev bildirdi ki, kameralar təhlükəsizliyin təmin edilməsilə əlaqədar quraşdırılıb:** "Yayımlanan xəbərlə əlaqədar olaraq bildirmək istəyirik ki, şirkətin "Zara" mağazalarında, geyinib-soyunma otaqlarının yaxınlığında yerləşən nəzarət kameraları sırf mağazaların təhlükəsizliyinin təmin edilməsi üçün quraşdırılıb. Bu kameralar yalnız mağaza daxilində yerin, koridorların və giriş-çıxış zonalarının görüntülərini əhatə edir və mağazalardakı geyinib-soyunma otaqlarının (kabinələrinin) içini çəkmir".

Qeyd edək ki, bu kimi hadisə dəfələrlə qeydə alınıb. Müxtəlif qadın geyim mağazalarının soyunub-geyinmə kabinesinə yaxın məsafədə kameraların quraşdırılması faktlarına rast gəlmişik.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, geyim mağazalarının soyunub-geyinmə otağında gizli kameraların quraşdırılması yolverilməzdir:** "Bu, insanların şəxsi həyatına kobud müdaxilədir. Gizli kameraların belə yerlərdə quraşdırılması istehlakçıların hüquqlarının birmənalı şəkildə pozulmasıdır. İstehlakçılar belə mağazalara getməməli, onları boykot etməlidirlər".

***Günel CƏLİLOVA***

# Məktəblilər üçün yay düşərgə qiymətlərindən xəbəriniz varmı...

## "ADA-Avropa İttifaqı (Aİ) Yay Düşərgəsində 11-15 yaşlı bütün uşaqlar iştirak edə bilər, qiyməti isə 350-400 AZN-dir"

## "STEP İT Academy"in təşkil etdiyi yay düşərgəsində məktəblilər geniş kompyuter biliklərinə malik olacaq, düşərgənin qiyməti 450 manatdır"

**2018-2019-cu il tədris ilinin bitməsinə az qalıb. Artıq valideynlər övladlarının yay tətilində necə istirahət edəcəyi barədə düşünməyə başlayıb. Təbii ki, ilboyu davam edən gərgin tədris prosesindən sonra hər bir şagirdin istirahət etmək və asudə vaxtını səmərəli şəkildə keçirmək hüququ var.**

Qeyd edək ki, vaxtilə məktəblilərin yay tətilini təşkil etmək üçün bütün sovet məkanında düşərgələr fəaliyyət göstərirdi. Hansı ki, belə məkanlarda uşaqların fəaliyyəti səmərəli şəkildə təşkil olunurdu.

Azərbaycana gəldikdə, müstəqilliyin ilk illərində bu məsələ tamamilə unudulmuşdu. Onun da nəticəsində uşaqlar yay tətillərini səmərəli keçirə bilmirdilər. Yalnız sonrakı illərdə ölkədə bir sıra yay düşərgələri yaradılmağa başlandı. Ancaq hələ də bu sahədə ciddi boşluqlar və problemlər mövcuddur. Belə ki, yalnız Şüvəlanda Çingiz Mustafayev adına düşərgə fəaliyyət göstərir ki, ora da ancaq Daxili İşlər Nazirliyi əməkdaşlarının övladları qəbul olunur. Həmçinin, bu tip düşərgələr pullu olduğundan, əksər vətəndaşın uşaqları belə yerlərdə istirahətdən məhrumdur. Nəticədə yay fəslində dərslərin başa çatması ilə əlaqədar olaraq əksər uşaq, demək olar ki, günlərini küçələrdə keçirir. Görünən mənzərə ondan ibarətdir ki, Azərbaycanda uşaqların asudə vaxtının təşkili üçün yay düşərgəsi kimi məkanların az və pullu olması fonunda əksər valideynin övladları vaxtlarını səmərəli keçirə bilmirlər.

Qeyd etdiyimiz kimi, vaxtilə məktəblilərin yay tətilini təşkil etmək üçün bütün sovet məkanında düşərgələr fəaliyyət göstərib. Hansı ki, belə məkanlarda uşaqların tətili səmərəli şəkildə təşkil olunurdu. Son zamanlar bu ənənə yenidən bərpa olunur. Bəzi valideynlər övladlarını bölgələrdə, beziləri isə xaricdə təşkil olunan yay düşərgələrinə göndərirlər. Qiymətlər isə təxminən 300 manatdan başlayır.

Tətildə övladlarının vaxtlarını daha səmərəli keçirməsi və istirahətini təşkil etmək üçün bir sıra valideynlər onları yay düşərgələrinə göndərirlər. Məlumat üçün bildirək ki, hazırda yay düşərgələri daha çox özəl şirkətlər tərəfindən həyata keçirilir.

ADA-Avropa İttifaqı (Aİ) Yay Düşərgəsində 11-15 yaşlı bütün uşaqlar iştirak edə bilər. Elanda qeyd olunur ki, bu düşərgədə məktəblilər cəmiyyətin müxtəlif sahələri haqqında biliklərini, dünyagörüşünü genişləndirə bilər. Düşərgənin qiyməti isə 350-400 manatdır.

"STEP IT Academy"in təşkil etdiyi düşərgə növbəli sistem əsasında fəaliyyət göstərir və bura 10-14 yaşlı məktəblilər qəbul olunur. "Academy"in təşkil etdiyi yay düşərgəsində məktəblilər geniş kompyuter biliklərinə malik olacaqlar. "STEP IT Academy"də məktəblilər üçün təşkil olunan düşərgənin qiyməti 450 manatdır.

**Mövzu ilə bağlı fikirlərini bildirən təhsil eksperti Nadir İsrafilov dedi ki, uşaqların yay tətilində necə və harada dincəlməsi sualı çoxlarını düşündürür:** "Sovet dönəmini qoyaq bir kənara, heç olmasa 2000-ci ilin əvvəllərinə qədər uşaqların asudə vaxtının səmərəli təşkili üçün Gənclər və İdman Nazirliyi və Təhsil Nazirliyi yay düşərgələri təşkil edirdi. Müəyyən müddətdən sonra belə düşərgələrin təşkili bu dövlət qurumlarının balansından da çıxarıldı. Halbuki, bəyənmədiyimiz postsovet məkanında bu qəbildən olan düşərgələr dövlət hesabına təşkil olunurdu. Hətta rayonlarda iri təsərrüfatların özlərinin balansına məxsus mövsümi düşərgələri var idi. Ayrı-ayrı təşkilatların Həmkarlar İttifaqı hesabına uşaqlar şən və mənalı istirahət edirdilər. Yerli təhsil şöbələrinin Qubada, Nabranda, Şüvəlanda və respublikanın digər füsunkar guşələrində "Qərənfil", "Qağayı", "Cırtdan" və digər adlarla düşərgələri



**Nadir İsrafilov:** *"Məktəblilərin yay düşərgəsi məsələsi geniş şəkildə ictimailəşməli, problemin üstünə gedilməlidir"*

fəaliyyət göstərirdi. Krımda yerləşən Ümumittifaq miqyaslı və beynəlxalq səviyyəli "Artek" düşərgəsinə düşmək isə hər bir məktəblinin ən böyük arzusu və şərəf işi hesab edilirdi. Baxmayaraq ki, artıq müəyyən müddət keçib, bununla belə, bu düşərgələrin uşaqların asudə vaxtının təşkili, təlim-tərbiyəsi, zərərli meyllərdən uzaqlaşması, məşğulluğu və səmərəli fəaliyyətə qoşulması baxımından çox böyük və müstəsna əhəmiyyəti hələ də danılmaz olaraq qalmaqdadır. Orada şagirdlər özlərinə dost tapırdılar, qayıdandan sonra öz təəssüratları barədə inşa yazırdılar, idman və hərbiyə dair bacarıq və vərdişlərə yiyələnirdilər, nizam-intizama alışırdılar. Əgər kiminsə şəhərdən kənara çıxmağa imkanı yox idisə, orta məktəblərdə şəhər tipli müəyyən düşərgələr təşkil olunurdu. Müstəqillik əldə etdikdən sonra yəqin belə hesab etdik ki, bu olayda nəsə bir müəmma - "pioner" sözü var və bu, sovetdən qalma nümunədir. Halbuki, pioner sözü məcazi olaraq "ilkin", "müjdəçi", "qaranquş" mənasında işlənirdi. Bu mənada, pioner düşərgələrinə, dəstə rəhbərlərinə ögey münasibət bəsləndi və bu tarixi ənənə, bir növ, arxivə göndərildi. Əslində, təlim-tərbiyə işinin axsamasının, təhsildən kütləvi yayınmanın, təhsilin keyfiyyətinin aşağı düşməsinin səbəblərindən biri də məhz pioner düşərgələrinin ləğv olunmasıdır. Çünki istirahət, kollektivçilik, təşkilatçılıq, birgəyaşayış prinsipləri yüksək əhval-ruhiyyəyə, təhsilin səmərəliliyinə və keyfiyyətinə müsbət təsir göstərən amillərdir. Eyni zamanda, bu düşərgələr, bir növ, hərbi xidmətə hazırlığın, fiziki, mənəvi və hərbi-vətənpərvərlik tərbiyəsinin də sınanmış bir forması idi. Uşaqların şeypurun səsi ilə vaxtında yuxudan durması, yatması, qidalanması rejimlə tənzimlənirdi. Yəni düşərgələr bütün tərbiyə aspektləri baxımından əhəmiyyətli idi".

Onun sözlərinə görə, orta məktəblərdən fərqli olaraq, ali təhsil ocaqlarında yay düşərgəsi istiqamətində müəyyən işlər var: "Bildiyim qədər, Azərbaycanda 60-a yaxın turizm şirkəti var ki, daxili turizmlə məşğul olurlar. Hesab edirəm ki, məktəblilərin yay düşərgəsi məsələsi geniş şəkildə ictimailəşməli, problemin üstünə gedilməlidir. Bunun adı "pioner" olmasın, başqa bir milli ad olsun, məzmunu "kommunizm qurucuları yetişdirmək" olmasın, müstəqil ölkəmizə layiqli vətəndaş yetişdirmək olsun. Lap elə atributları da dəyişək. Əsas forma deyil, mahiyyətdir. Bundan başqa, uşaqların istirahəti büdcə vəsaiti, Həmkarlar İttifaqı, sahibkarlar, bələdiyyələr, xeyriyyəçilər və ianələrin hesabına, ya da imkanlı valideynlərin öz hesabına olsa belə, bütün mümkün imkanlar araşdırılmalıdır.

**Problemin dövlət büdcəsi hesabına həll olunması və dövlət nəzarəti altında olması isə arzuolunandır. Əks halda, problem öz həllini tapanadək, cüzi miqdarda dövlət büdcəsindən pul ayırmaqla, heç olmasa yay tətili zamanı səfalı regionlarda yerləşən məktəblərin bina və ərazilərini yay düşərgəsinə çevirmək və düşərgə xidmətləri təşkil etmək olar. "Sağlam bədəndə sağlam ruh olar" deməklə iş bitmir. Əlaqədar hökumət və dövlət qurumları gələcəyimiz olan uşaqlarımızın sağlamlığı, mənəvi və fiziki inkişafı imkanlarını lazımınca dəyərləndirməli və ölkə başçısı qarşısında müvafiq məsələ qaldırmalıdırlar".**

*Günel CƏLİLOVA*

№ 93 (3991) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

24 MAY 2019-cu il

# Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzi artıq Lәnkәranda!

*Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzinin yeni ofisi tәlәbәlәrin istifadәsinә verildi*

**22 may tarixindә Lәnkәran Dövlәt Universiteti nәzdindә "Azercell"in Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzinin yeni ofisinin açılış mәrasimi keçirilib.**

"Akhundoff Group" şirkәti tәrәfindәn әn müasir avadanlıqla tәchiz olunan ofisdә gәnclәr üçün sahibkarlıq vә informasiya texnologiyaları mövzularını әhatә edәn tәlimlәrin keçirilmәsi, onlara müxtәlif layihәlәrin hazırlanmasında yardım edilmәsi nәzәrdә tutulub.

Tәdbirdә çıxış edәn "Azercell"in Korporativ ünsiyyәt şöbәsinin rәhbәri Nigar Şıxlinskaya Lәnkәran Dövlәt Universitetinin rәsmilәrinә vә "Akhundoff Group" şirkәtinin rәhbәrliyinә bu tәşәbbüsü dәstәklәdiklәrinә görә tәşәkkür edib. "Azercell" tәrәfindәn ölkәdә sahibkarlıq mühitinin inkişafına töhfә vermәk mәqsәdilә 2009-cu ildә yaradılan Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzinin fәaliyyәtindәn bәhs edәn Nigar Şıxlinskaya yeni açılan ofisin gәnclәrә bu sahәdә әvәzsiz tәcrübә bәxş edәcәyini söylәyib. O, hәmçinin, regional Barama ofislәrinin paytaxt vә bölgә universitetlәrindә tәhsil alan tәlәbәlәri startap sahәsindә bәrabәr inkişaf imkanları ilә tәmin edәcәyini vurğulayıb. Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzinin rәhbәri İmran Bağırov öz nitqindә yeni istifadәyә verilәn mәrkәzin әsas mәqsәdinin kәnd tәsәrrüfatı vә texnologiyanı birlәşdirmәk, bu sahәdә ixtisaslı kadrlar, proqramçılar yetişdirmәk olduğunu bildirib.

Qeyd etmәk istәrdik ki, "Azercell" hәr zaman gәnclәrin peşәkar inkişafına vә onların mütәrәqqi ideyalarının hәyata keçirilmәsinә xüsusi diqqәt ayırıb. Bu istiqamәtdә "Azercell"in tәşәbbüsü ilә yaradılan ölkәnin ilk biznes inkubatoru - Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzinә çevrilib. "Azercell" vә "Paşa Bank"ın dәstәyilә mәrkәz fәaliyyәti boyunca bir çox layihәlәrin müştәqil şirkәtә çevrilmәsinә yardım edib, müxtәlif tәdbirlәr, seminarlar vә tәlimlәr keçirib.

**Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.**

## Elan

Şәki rayonu, II Bilәcik kәnd sakini Xasıyev Kәrim Abdulhәşim oğlunun adına verilmiş A 195783, A 195782, A 195901, A 195794, A 195793, A 195787, A 195701, A 195547 saylı torpaq sahәsinin planı vә ölçüsü sәnәdi itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, II Bilәcik kәnd sakini Xasıyev Kәrim Abdulhәşim oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 0107 torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üün etibarsız sayılır.

Bakı şәhәr sakini Mәmmәdli Sübhan Saleh oğlunun adına verilmiş 40401369700 saylı reyestrdәn çıxarış itdiyi üçün etibarsız sayılır.

"Nikoil" İKB ASC-nin mülkiyyәtindә olan, Bakı şәhәri, Nәrimanov rayonu, Әlәsgәr Qayıbov küçәsi, N-10 ünvanında yerlәşәn 0.69993 ha torpaq sahәsi vә onun üzәrindә olan 492,4 kv.m. ümumi sahәdәn ibarәt qeyri-yaşayış binasının çıxarışı itdiyi üçün etibarsız sayılır.

"HEALTH SAFETY SİSTEMS" MMC-yә (VÖEN-1303512491) mәxsus nizamnamә itdiyi üçün etibarsız sayılır.

Paşayeva Rübabә Mehti qızının adına, Bakı şәhәri, Xәtai rayonu, Әhmәdli qәsәbәsi, Sarayevo küçәsi, bina N-22, mәnzil N-41 ünvanının MH N-0000055 HDQHDӘDR-dәn çıxarışı itdiyi üçün etibarsız sayılır.

Qazıyeva Böyükxanım Nazim qızının adına "Arabaçı" KM-si tәrәfindәn 25.11.2006-cı il tarixindә verilmiş müqavilә vә maliyyә arayışı itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şәhәri, Yasamal rayonu, Yeni Yasamal yaşayış massivi, Talıblı küçәsi, mәnzil 128).

İsgәndәrov Xaliq Fәxrәddin oğlunun adına, Milli Tәhlükәsizlik Nazirliyi tәrәfindәn 20 avqust 1997-ci il tarixindә verilmiş M/V N-0727 müharibә veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Mәmmәdov Rüfәt Rәşad oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Heydәrov Fuad Namiq oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Rәsulzadә Nurlan Mәhәmmәd oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Şәfiyeva Kamilә Hacıәhmәd qızına Azәrbaycan Turizm vә Menecment Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Almasov Әziz İsabala oğluna Qәrbi Kaspi Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

**Elxanә xanım Ağcabәdi Mәrkәzi Xәstәxanasının Kadrlar şöbәsinin işçisi Rәsmiyyә xanıma yaxın qohumu Nübar xanımın vәfatı ilә әlaqәdar kәdәrlәndiyini bildirir, dәrin hüznlә başsağlığı verir. Allah rәhmәt elәsin.**





**Qoç** - Tefeya vә Kallistonun münasibәtlәri çalışdığınız işdә yeniliklәr vәd edir. Müәyyәn qrupun daxilindәki münasibәtlәr dә yenilәnә bilәr. Dostlar dәyişikliklәrin mәnbәyi olacaq. İşdәki tәmas vә әlaqәlәrdә fәrqli istiqamәtlәr yarana bilәr.



**Buğa** - Titan vә Avropanın münasibәtlәri bu günün asan olmayacağından xәbәr verir. Baş vermәsini istәmәdiyiniz hadisәlәr yaşanacaq. Hәyatınızda önәmli olan insanlardan biri ilә münasibәtlәr gәrginlәşә bilәr.



**Әkizlәr** - Ay vә Marsın münasibәtlәri sizdәn baş verәnlәri qavramaq, tәhlil etmәk, nәticә çıxarmaq vә yeni işlәrә hazırlaşmağı tәlәb edir. Yaxın әtrafınızdakı insanlarla әlaqәlәri güclәndirin.



**Xәrçәng** - Kallisto vә Lisiteyanın münasibәtlәri sizdәn ötkәm, amma hәm dә fәndgir vә ağıllı davranmağı istәyir. Әtrafdakı insanların tәhriklәrinә vә tәxribatlarına aqressiv reaksiya vermәyin.



**Şir** - Ay vә Saturnun münasibәtlәri hәlәlik başa vurmadığınız işlәri yeni mәrhәlәyә keçirir. Gәlәn xәbәrlәrә, yaranan ideyalara hәssas olun. İş tәkliflәri bol ola bilәr. İzafi ünsiyyәtlә özünüzü yormayın.



**Qız** - Tefeya vә Oberonun münasibәtlәri sizdәn yaranan tәmayüllәrә diqqәtlә baxmağı tәlәb edir. İşdәki qaydaya riayәt etmәk çox mühümdür. Yerdәyişmә, prioritet yenilәnmәsi mümkündür.



**Tәrәzi** - Günәş vә Titan bu gün sizә yeni rol hazırlayıblar. Ola bilәr ki, hәmin işi görmәk istәmirsiniz, amma nә etmәli, iş sizi gözlәyir. Kiminsә tәsiri vә ya nüfuzu sizә planlarınızı reallaşdırmağa mane ola bilәr.



**Әqrәb** - Mars vә Saturnun münasibәtlәri münasibәtlәrdәki yarımçıq mövzunu tamamlaşdırmaq, deyilmәmiş sözlәri demәk mәcburiyyәti yaradır. Çoxdan bәri başlamağa cürәt etmәdiyiniz vә ya vaxt tapmadığınız işi görmәk zamanıdır.



**Oxatan** - Umbriel vә Enseladın münasibәtlәri bu gün energetikanızı artıracaq. Müәyyәn xәbәr, görüş, mühüm danışıqla bağlı nigaranlıq var. Yaxın iki günlә әlaqәdar fәaliyyәtinizi müәyyәnlәşdirin.



**Oğlaq** - Venera vә Plutin bu gün batininizdәki tәbәddülatdan qurtulmağı, yaxın gәlәcәkdәki fәaliyyәtinizi nisbәtәn dә olsa, planlaşdırmağınızı istәyir. Nәyinsә yaşanacağını hiss etdiyiniz situasiyalarda sayıq vә ehtiyatlı olun.



**Dolça** - Andromeda vә Ay bu gün sizә ilin әn mühüm hadisәlәrindәn birini vәd edir. Bu olay yaşamınız üçün әhәmiyyәtlidir. Köhnәlәn vә gәrәksiz roldan qurtulmaq istәsәniz, hissәlәrinizdә yenilәnmә baş verәcәk.



**Balıqlar** - Deymos vә Fobosun münasibәtlәri sizә yeni hadisәlәr mәcrası vәd edir. Tәlәsmәyin, bu gün әsas mәsәlә yaşananlara hazır olmaq, prioritetlәri müәyyәnlәşdirmәk, ötәnlәrdә özünü doğrultmayan planlar vә istәklәri unutmaqdır.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

# "Nar" aztәminatlı ailәlәrdәn olan uşaqlara dәstәk olur

**"Nar"ın dәstәyilә kimsәsiz vә aztәminatlı ailәlәrdәn olan uşaqlar üçün tәşkil edilәn peşәkar boks tәlimlәri davam edir. Artıq dördüncü ildir keçirilәn bu layihәdә 200-dәn çox tәlәbә iştirak edib.**

Tәlimlәr Azәrbaycanın aparıcı boks klubu "Baku Fight Lab"ın dünya vә Avropa çempionları tәrәfindәn keçirilir. Tәlimlәrdә iştirak edәn gәnc boksçuların vә müәllimlәrin peşәkar idman lәvazimatları "Nar" tәrәfindәn tәşkil edilir.

Yeni mәrhәlәnin başlanması münasibәtilә keçirilәn tәdbir zamanı "Baku Fight Lab" klubunun icraçı direktoru Fәrhad Acalov "Nar"a minnәtdarlığını bildirib vә gәnclәrin asudә vaxtının sәmәrәli keçirilmәsindә layihәnin әhәmiyyәtini vurğulayıb. Daha öncә layihәdә iştirak edәn tәlәbәlәrin qısa zaman әrzindә respublika sәviyyәsindә fәrqlәndiyini qeyd edәn F.Acalov tәlimlәrә yeni qatılan gәnclәrә uğurlar arzulayıb.

"Nar" gәnclәrә vә idmana yönәlik korporativ sosial mәsuliyyәt (KSM) strategiyasına uyğun olaraq, artıq dördüncü ildir boks tәlimlәrini davam etdirir. Layihәnin әsas mәqsәdi kimsәsiz vә aztәminatlı ailәlәrdәn olan uşaqların asudә vaxtını sәmәrәli tәşkil etmәk vә cәmiyyәtә sağlam ruhlu fәrdlәr qazandırmaqdır.

Qeyd edәk ki, "Nar" mobil operatoru "Baku Fight Lab" klubunun rәsmi tәrәfdaşıdır.

"Azerfon" MMC ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. "Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7500-dәn artıq baza stansiyası ilә 2,2 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.